www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8-9 aprel 2017-ci il şənbə № 72 (6686) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda şagirdi məktəbin həyətində bıçaqladılar

yazısı səh.14-də

**Gündəm**

### Tramp böyük müharibənin düyməsini basdı



**Şahin Cəfərli:** "Moskva yavaş-yavaş anlamağa başlayır ki, ABŞ seçkilərində "yanlış ata oynayıb" və bəlkə də Klintonun seçilməsi daha əlverişli olarmış"

yazısı səh.6-da

### Ölkə aprel şəhidlərin anır - anım mərasimləri davam edir

yazısı səh.3-də

### "Əsəd getsə də Suriyada heç nə dəyişməyəcək" - Elçin Mirzəbəyli

yazısı səh.13-də

### Avropa Məhkəməsinin cərimələri-qərarlar nə vaxt icra olunacaq?

yazısı səh.3-də

### İqtisadi böhran bəzi İslam ənənələrini gündəmə gətirib

yazısı səh.10-da

### MSK rəsmisindən milyonlarla mənimsəmə ittihamına cavab

yazısı səh.4-də

### İtaliya məhkəməsi TAP-a qarşı; zeytun ağacları bəhanədir, yoxsa...

yazısı səh.15-də

### Nazir müavininin milyonları mənimsəyən qohumunun azadlığa buraxılmasının pərdəarxası

yazısı səh.4-də

### Düşmənin unutduğu aprel dərsi - onu bir də keçməli olacaq

yazısı səh.11-də

### Azərbaycan iqtisadiyyatı Rusiyadakı soydaşlarımızın geri dönüşünə hazırdırmı...

yazısı səh.10-da

### Gələn il Azərbaycanda 45 min müəllimin əməkhaqqı artırılacaq

yazısı səh.10-da

# ABŞ erməni lobbisinin "BoraJet" əməliyyatı

## TÜRKİYƏNİN UÇAQ ŞİRKƏTİ ABŞ ERMƏNİLƏRİNİN ƏLİNƏ KEÇDİ-SENSASİON MƏLUMATLAR

Əsl sahibi erməni Levon Termendzyan olan SBK Holdinq "BoraJet"i alıb, Ermənistanla hava daşımaçılığını genişləndirməyi nəzərdə tutur; bunun üçün artıq ciddi səviyyədə danışıqlara da başlanıb; Yalçın Ayaslı erməni lobbisinin hədəfinə niyə gəldi...




yazısı səh.9-da

## Milli Məclisdə Rusiya və banklarla bağlı gərgin müzakirələr

Parlamentdə bank soyğunçuluqlarına ciddi etiraz edildi; Siyavuş Novruzov: "Banklarda niyə belə vəziyyət yaranıb, bu suala cavab verilməlidir"

yazısı səh.5-də



### Nəsil-nəcabətini unutmuş satqın Şahin Mirzəyev necə "patriot" oldu...

yazısı səh.8-də



### Rusiyadakı terrordan sonra Azərbaycandakı qırğızlar nəzarətə götürülüb - İlham İsmayıldan sensasion açıqlamalar

yazısı səh.12-də



### Əli İnsanovun yeni məhkəməsi başladı; sabiq nazir sərt açıqlamalar verdi

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 72 (6686) 8 aprel 2017

# Bakı şəhər Baş Polis İdarəsi Milli Şuranın mitinqi ilə bağlı xəbərdarlıq etdi



**Bakı şəhər Baş Polis İdarəsi (BŞBPİ) Milli Şuranın aprelin 8-də keçirəcəyi mitinqlə bağlı xəbərdarlıq edib.**

İdarənin rəis müavini, polis general-mayoru Səhlab Bağırov APA-ya açıqlamasında bildirib ki, Milli Şuranın Bakı şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmış mitinqində hər hansı təxribata imkan verilməyəcək: "Biz mitinqin təşkilatçılarını Bakı şəhər Baş Polis İdarəsinə dəvət etmişik. Onlara xəbərdarlıq ediləcək. Mitinqdə aksiyanın keçirilməsi üçün Bakı şəhər İcra Hakimiyyətinə ünvanlanan müraciətdə qeyd olunan şüarlardan başqa şüarların səslənməsinə, həmçinin iğtişaşa və qarşıdurmaya səbəb ola biləcək hər hansı addımın atılmasına imkan verilməyəcək. Əks təqdirdə, mitinqin təşkilatçıları və günahkarlar qanun çərçivəsində cəzalandırılacaqlar".

Qeyd edək ki, Milli Şura aprelin 9-da mitinq keçirmək üçün Bakı Şəhər İcra Hakimiyyətinə müraciət ünvanlayıb.

Bakı Şəhər İcra Hakimiyyəti isə mitinqin aprelin 8-də Yasamal İdman Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul" stadionu) keçirilməsini tövsiyə edib.

Milli Şura tövsiyəni nəzərə alaraq mitinqin aprelin 8-də keçirilməsinə qərar verib.



## QHT Şurası qalib təşkilatlar üçün məlumatlandırma sessiyası keçirdi

**Bu gün Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası 2017-ci il birinci qrant müsabiqəsində qalib gələn QHT-lər üçün məlumatlandırma sessiyası keçirib.**

Şura Katibliyinin icraçı direktoru Fərasət Qurbanov çıxış edərək Şura ilə QHT-lər arasında müqavilələr imzalamaq üçün tələb olunan sənədlər, müqavilə öhdəlikləri, layihə idarə edilməsinin qayda və istiqamətləri, layihələrin icrası zamanı ortaya çıxan problemlər və onların həlli qaydaları, ötən il layihələrin həyata keçirilməsi zamanı yol verilən nöqsanların təkrarlanmaması üçün atılacaq addımlar haqqında təqdimatla çıxış edib.

Şuranın baş mühasibi Emin Məmmədov çıxışında maliyyə vəsaitinin idarə olunması, hesabatlılıq, nağdsız ödənişlər və digər zəruri məsələlərə toxunub.

Məlumatlandırma sessiyasında QHT-lərin müsabiqə ilə bağlı sualları cavablandırılıb.



## MSK sədri partiyalara xəbərdarlıq etdi

**"İndiyə qədər 19 siyasi partiya maliyyə hesabatını təqdim etməyib". APA-nın məlumatına görə, bunu bu gün Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında MSK sədri Məzahir Pənahov bildirib.**

MSK sədri deyib ki, bu problemin yaranmasının səbəblərindən biri bir sıra partiyaların sədrlərinin səlahiyyət müddətinin başa çatmasıdır: "Bu partiyalar qanunvericiliyə uyğun olaraq yenidən sədrlərini seçməli və qanuni səlahiyyətli olan şəxs maliyyə hesabatını təqdim etməlidir. Biz yenə də dözümlü mövqe nümayiş etdirərək çalışacağıq ki, partiyaların hamısı maliyyə hesabatlarını versinlər".

**M.Pənahov qeyd edib ki, Vahid Kommunist Partiyasının sədri vəfat etsə də, maliyyə hesabatını təqdim edib:** "19 partiya qalıb və onların bir hissəsinin sədrlərinin səlahiyyətləri başa çatıb. Mən bir daha siyasi partiyalara müraciət edirəm ki, maliyyə hesabatlarını təqdim etsinlər. Maliyyə hesabatlarında imzanın səlahiyyətli olub-olmamasına gəlincə, maliyyə hesabatlarını göndərsinlər, sonra imzanın nə dərəcədə səlahiyyətli olmasına münasibət bildirəcəyik".

**Qeyd edək ki, Azərbaycanda 55 siyasi partiya qeydiyyatdan keçib. Qanunvericiliyə əsasən partiyalar hər il aprelin 1-ə qədər ötən ilin maliyyə hesabatlarını MSK-ya təqdim etməlidir.**

## Maliyyə Bazarlarına Nəzarət Palatasına daha bir səlahiyyət verilir

**Milli Məclisin plenar iclasında Mülki Məcəlləyə dəyişikliklər edilməsi barədə qanun layihəsi müzakirəyə çıxarılıb. "APA-Economics" xəbər verir ki, qanun layihəsi barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib.**

Hazırda qüvvədə olan maddəyə əsasən, bank sirrini təşkil edən məlumatlar yalnız müştərilərin özlərinə və ya nümayəndələrinə verilə bilərdisə, təkliflər qəbul olunacağı təqdirdə bu məlumatlar həmçinin kənar auditorlara və maliyyə bazarlarına nəzarət orqanına da veriləcək. Qeyd edək ki, dövlət orqanlarına və onların vəzifəli şəxslərinə bu cür məlumatlar yalnız qanunda nəzərdə tutulmuş hallarda və qaydada verilə bilər.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.




## AŞPA Bakıda seminar keçirəcək

**Bakıda AŞPA-nın uşaq məsələləri üzrə yeni alt komitəsinin parlament seminarı keçiriləcək.**

APA-nın AŞPA-nın saytına istinadən verdiyi məlumata görə, mayın 31-də keçirilməsi planlaşdırılan seminara baronessa Dorin Messiy sədrlik edəcək.

"Rəqəmsal ətrafda uşaqların müdafiəsi və dəyərlərin qorunması" adlı seminarın əsas məqsədi internet üzərindən uşaqlara qarşı təhdidləri azaltmaq, onlar üçün daha təhlükəsiz internet məkanı, həmin məkanda özlərini müdafiə etmək qabiliyyətini artırmaq yollarını müəyyənləşdirərək təbliğ etməkdir.

## Azərbaycandan xaricə istirahətə gedənlərin sayı 10 faiz azalıb

**Ötən ilə nisbətən bu il Azərbaycandan xaricə istirahətə gedənlərin sayı üzrə çox böyük azalma müşahidə edilmir.**

Trend-in məlumatına görə, bunu mədəniyyət və turizm naziri Əbülfəs Qarayev jurnalistlərə bildirib.

Nazir deyib ki, 2016-cı ildə getmə turizm üzrə göstərici 10 faizədək azalıb. Onun sözlərinə görə, baş verən iqtisadi çətinliklərlə əlaqədar getmə turizminin azalması bütün dünyada müşahidə edilir.

**Ə.Qarayev bildirib ki, Azərbaycan vətəndaşlarının müxtəlif ölkələrdə istirahət etməsini istəsələr də, getmə turizm prioritet deyil. Nazir əsas məqsədin gəlmə turizminin inkişafı olduğunu söyləyib.**



## İsveçdə terror oldu - 5 ölü

**İsveçin paytaxtı Stokholm şəhərində terror hadisəsi baş verib. Musavat.com lenta.ru saytına istinadən xəbər verir ki, naməlum şəxs yük maşınını kütlənin üzərinə sürüb. Son məlumatlara görə, İsveç polisi yük maşınını Drottninqqatan küçəsində yük maşınının kütlənin üzərinə sürən sürücünü saxlayıb. Bu barədə İsveç baş naziri Stefan Lavfen məlumat verib.**

İsveç baş naziri insidentin terror hücumunun bütün əlamətlərini daşıdığını söyləyib.

İsveç televiziyası hadisədə ölənlərin 5-ə çatdığını xəbər verib.

## Müflis olan bankların rəhbərlərinin mülkləri müsadirə olunacaq

**Milli Məclisin plenar iclasında İnzibati Prosessual, Mülki Prosessual, Mülki Məcəllə, eləcə də "Banklar haqqında" qanuna dəyişikliklər edilməsi barədə qanun layihələri müzakirəyə çıxarılıb.**

"APA-Economics" xəbər verir ki, "Banklar haqqında" qanun layihəsi barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verib. Onun sözlərinə görə, dəyişikliklər qəbul olunsa, Azərbaycanda bankın öhdəliklərinin könüllü restrukturizasiyası proseduru tətbiq olunacaq. Layihəyə əsasən, bank öhdəliklərinin könüllü restrukturizasiyası ilə əlaqədar ərizə ilə məhkəməyə müraciət edə biləcək. Ərizəyə məhkəməyə təqdim olunandan sonra 10 təqvim günü ərzində baxılacaq və qərar qəbul ediləcək.

Bundan başqa, qanun layihəsində "körpü bank"ların yaradılması da nəzərdə tutulur. Başqa sözlə, layihəyə əsasən, maliyyə bazarlarına nəzarət orqanı müvəqqəti müddətə sadələşdirilmiş qaydada bank yaradır. Bankın sağlam aktiv və öhdəlikləri bu "körpü bank"a keçirilir. Bu bank müəyyən müddətdən sonra sağlam bank kimi bazara çıxarılıb satılır.

Sənəddə maliyyə bazarlarına nəzarət orqanı tərəfindən problemi olan, könüllü restrukturizasiya oluna bilməyən bankların icbari qaydada problemlərinin həlli yolları göstərilib. Belə ki, layihədə banka aidiyyatı olan şəxslərin, yəni səhmdarların, bankın idarə edilməsi ilə bağlı qərarlar qəbul etmək səlahiyyətində olan şəxslərin bankdakı depozitlərinin icbari qaydada bankın səhmlərinə keçirilməsi, bankın səhmlərinin bir qismini çıxarıb satmaqla bazardan vəsaitlərin cəlbi, bankın aktiv öhdəliklərinin birlikdə, yaxud ayrı-ayrılıqda çıxarılıb satılması ilə problemlərin həlli nəzərdə tutulur.

Qanuna təklif olunan digər dəyişikliklərə əsasən, bankın problemlərinin yaranmasında inzibatçılar və səhmdarların məsuliyyətləri olacağı təqdirdə onlar əmlakları ilə dəymiş zərərin ödənilməsi üçün cavabdeh olacaqlar. Başqa sözlə, Azərbaycanda müflis olan bankların səhmdarlarının, inzibatçılarının mülkləri müsadirə edilərək satılacaq.

**Qanun layihələri səsə qoyularaq qəbul edilib.**

## AVCİYA azyaşlılara siqaret satılmasının qarşısının alınmasına dair tədbir keçirəcək

**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) İnsan Hüquqları XXI əsr-Azərbaycan Fondu ilə birgə "Yetkinlik yaşına çatmayanların tütün məmulatlarına çatımlılığı: problemlər və həlli yolları" mövzusunda Dəyirmi Masa keçirəcək.**

Musavat.com xəbər verir ki, tədbirdə layihə çərçivəsində həyata keçirilmiş sosioloji tədqiqatın nəticələrinin təqdimatı keçiriləcək, habelə ölkəmizdə yetkinlik yaşına çatmayanlara siqaret satışına olan məhdudiyyətlərin vəziyyəti, qadağalara nəzarət mexanizmləri, bu sahədə birgə fəaliyyət, QHT və dövlət əməkdaşlığı perspektivləri müzakirə ediləcəkdir. Dəyirmi Masada həmçinin DİN-in müvafiq strukturlarının, Səhiyyə Nazirliyinin, Təhsil Nazirliyinin, Bakı şəhər İcra hakimiyyətinin müvafiq idarələrinin və digər aidiyyatı dövlət rəsmilərinin, eləcə də QHT və KİV nümayəndələrinin iştirakı nəzərdə tutulmuşdur. QEYD: Tədbir 11 aprel 2017-ci il tarixində, saat 11:00-da Beynəlxalq Mətbuat Mərkəzinin Dəyirmi Masa zalında keçiriləcəkdir. (Ünvan: Bakı, Yasamal rayonu, Mətbuat prospekti 23, 6-cı mərtəbə)

## Qubada sinifə girən şəxs məktəblini döyüb

**Qubada dərs vaxtı məktəbə daxil olan şəxs şagirdi döyərək xəsarət yetirib.**

"Report" xəbər verir ki, hadisə Quba rayonunda, Rüfət Kəlbiyev adına Xınalıq kənd İnternat tam orta məktəbində baş verib.

Belə ki, kənd sakini Əkbərov Əfqan Elxan oğlu məktəbə gələrək, icazəsiz sinif otağına daxil olub və 17 yaşlı şagird Məhəmməd İsmayılovun üstünə qışqıraraq ayağa durmasını tələb edib.

O, şagirdi təpiklə vurmaq istəyərkən, M.İsmayılov onun ayağından tutub və yerə yıxıb. Ə.Əkbərov ayağa duraraq Məhəmmədin boğazından yapışıb, boğmağa başlayıb. Bu zaman məktəbin direktoru Yusif Dəmirov içəri daxil olub. Məktəb direktoru M.İsmayılovu Ə.Əkbərovun əlindən almaq istəsə də gücü çatmayıb. Səs-küyə digər müəllimlər də gəlib, güclə Məhəmmədi Əfqanın əlindən alıblar.

Boğulma nəticəsində şagirdin vəziyyəti pisləşib və huşunu itirib.

Məhəmmədin valideynləri hadisə ilə bağlı hüquq-mühafizə orqanlarına məlumat veriblər.

**Faktla bağlı Quba Rayon Polis Şöbəsində araşdırmalara başlanılıb.**

# Ölkə aprel şəhidlərin anır - anım mərasimləri davam edir

## Akif Nağı: "Şəhidlərə və onların ailələrinə münasibətdə bir Türkiyə nümunəsi görürük..."

**Ötən ilin aprel savaşında şəhid olan hərbiçilərimizin xatirəsi bütün ölkə boyu anılmaqdadır. Aprelin 2-dən etibarən başlayıb hələ də davam edən bu tədbirlərə ictimai şəxslərlə yanaşı, sadə vətəndaşlar da qatılıb, şəhidlərimizin xatirələrini anırlar.**

Eyni zamanda müxalifət nümayəndələri də bu günlər ərzində şəhidlərimizin xatirəsinə ehtiram olaraq, Şəhidlər Xiyabanını ziyarət edib, Vətən uğrunda canlarını qurban verən hərbiçilərimizin il mərasimlərində iştirak edirlər. Həmin tədbirlərin bəzilərinin siyahısına diqqət edək.

Aprelin 2-də qoşunların təmas xəttində Ermənistan silahlı bölmələrinin hücumunu dəf edərkən həlak olan pilotlar - mayor Təbriz Musazadə, mayor Urfan Vəlizadə və baş leytenant Bəkir İsmayılovun anım tədbirləri keçirilib. Mərasimlərdə Müdafiə Nazirliyinin və Hərbi Hava Qüvvələrinin zabit heyəti, şəhidlərin hərbçi yoldaşları, yaxınları, eləcə də yerli icra hakimiyyətlərinin rəhbər nümayəndələri iştirak ediblər. T.Musazadə, Ü.Vəlizadə və B.İsmayılov ötən il aprel döyüşlərində şəhid olub. Hər üç pilot II Fəxri xiyabanda dəfn edilib.

Aprelin 4-də ötən ilin aprel savaşında şəhid olan Azərbaycanın Milli Qəhrəmanı, polkovnik-leytenant Murad Mirzəyevə həsr olunan "Muradına çatmayanlar: apreldən əvvəl və sonra" sənədli filminin təqdimat mərasimi keçirilib. Şəhidin xatirəsinə həsr olunan bu tədbirdə deputatlar Qənirə Paşayeva, Əflatun Amaşov, Musa Qasımlı və digərləri iştirak ediblər. Tədbirdə çıxış edən deputatlar ötən il şəhid olan digər hərbiçilərimizin də xatirəsini anıblar.



Aprelin 7-də Sumqayıt şəhərində ötən ilin aprel ayında qəhrəmanlıq göstərərək şəhid olmuş əsgər Şulan Bayramovun da məzarı ziyarət olunub. Şəhidin xatirəsinin yad olunması məqsədilə təşkil olunan tədbirdə yerli icra nümayəndələri, sadə vətəndaşlar və deputat Qənirə Paşayeva da iştirak edib. Bundan əlavə, şəhidlərimizin xatirəsini yad etmək məqsədilə Azərbaycan İstiqlal Muzeyinin ekspozisiyasında "Bitməyən savaş" adlı tədbir-sərgi də keçirilib. Azərtac-ın məlumatında qeyd olunur ki, muzeyinin direktoru Fəridə Şəmsi, Milli Məslinin deputatı Hikmət Babaoğlu, jurnalist Aida Eyvazlı və başqaları aprel döyüşləri zamanı əsgərlərimizin göstərdikləri igidlikdən söhbət açıblar. Çıxış edənlər aprel döyüşlərindəki qələbənin böyük qələbəmizin başlanğıcı olduğunu vurğulayıblar, Azərbaycan xalqının mübarizliyindən, ordumuzun şücaətindən danışıblar.

Şəhidlərimizlə bağlı keçirilən tədbirlərin iştirakçısı olan **Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı** "Yeni Müsavat"a bildirdi ki, hələ bundan sonra da bu kimi tədbirlərin keçirilməsi davam edəcək: "Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və QHT şurasının təşkilatçılığı ilə müxtəlif yerlərdə şəhidlərimizlə bağlı anım tədbirləri keçirilir. Bu çox müsbət haldır. Aprelin 9-da Qusar və Şabranda da anım tədbirləri keçiriləcək. Bu tədbirlərdə yerli komissarlıqlar, yerli icra hakimiyyətinin nümayəndələri eləcə də sadə vətəndaşlar iştirak edirlər. Tədbirlər çox yüksək səviyyədə keçirilir. Şəhidlərə və onların ailələrinə münasibətdə bir Türkiyə nümunəsi görürük. Bu çox vacib bir haldır. Ümumiyyətlə, aprel döyüşlərindən sonra Azərbaycan cəmiyyətində bir ruh yüksəkliyi yarandı. Ötən ilin aprel ayında cəbhə xəttində də olub, oradakı hərbiçilərimizdə ruh yüksəkliyinin canlı şahidi oldum. Eyni zamanda başlarına mərmi yağan sakinlər də öz torpaqlarından, evlərindən bir addım kənara çıxmaq fikrində deyildilər. Ümumən Azərbaycan ərazisində vəziyyət bax bu cür idi. Hər kəs cəbhə xəttinə gedib, əsgərlərimizin yanında olmaq, döyüşmək istəyirdi. Bütün bunlar insanlarımızda vətənpərvərliyin, torpaqlarımızı unutmadığlarının və unutmayacaqlarının göstəricisidir. Axırıncı dəfə biz Xaçmazda şəhidlərimizin anım tədbirində olduğumuz zaman orada icra başçısı da başda olmaqla, 50-60 insan var idi. Rayonun nə qədər rəhbər işçisi var idisə, hamısı həmin tədbirdə idi. İndiyə qədər şəxsən mən Xızıda, iki dəfə Xaçmazda, Sumqayıtda keçirilən tədbirlərdə oldum. Bazar günü isə Şabran və Qusarda keçiriləcək mərasimə qatılcağıq. Bu gün şəhidlərimizə çox müsbət yanaşma var. Onların xatirələri yüksək səviyyədə, bütün ölkə üzrə anılır. Bu da sevindirici haldır".

❑ **Əli RAİS**

# Bəşəri dəyərlərin heç edilməsi...



**Xalid KAZIMLI**

**Öz çıxış və yazılarından sitat gətirməyi sevən adamların hərəkətinə oxşasa da, zərurət üzündən 2011-ci il aprel ayının 27-də "Yeni Müsavat"da dərc olunmuş "Bəşərin vicdanı, eşqi, ürəyi..." başlıqlı yazımdan iqtibaslar edirəm.**

Bu sitatları gətirməkdə məqsəd uzaqgörənliyi iddia etməklə bağlı deyil, dünyanı idarə edənlərin nə qədər kütbeyin, korafəhm, qeyri-insanpərvər, dişsiz, yumşaq olmalarını göstərməkdir.

6 il öncə yazmışdıq:

"Suriyada Bəşər Əsəd fırtınası əsməkdədir. Şərq diktatorlarının ən gənci olan Bəşər Əsəd diktator atasından qalan hakimiyyəti qorumaq üçün heç nədən çəkinməyəcəyini ortaya qoyub. Adam öz xalqının üstünə tank-top yeridib, yüngül və ağır atıcı silahlar tuşlayıb. Sanki Bəşər Əsəd qonşu ölkədən hücuma keçən xarici təcavüzkarlarla müharibəyə başlayıb".

"21-ci əsrin bu çağında öz haqqını tələb edən insanlar dünya ictimaiyyətinin gözü baxa-baxa öldürülür. Diktatura rejimlərinin hamısında olduğu kimi, Suriyada da antiBəşər çıxışlara görə antibəşəri cinayət törədilir. Elə bil, diktatorların istədikləri vaxt istədikləri sayda insanı qırıb-çatmaq, güllələmək kimi müstəsna hüquqları var".

Məşhur bir ifadədə kiçik hərfi böyük edərək desək, "Bəşərin vicdanı, eşqi, ürəyi, fikri, düşüncəsi, zehni, diləyi" hakimiyyətdir. O, əmindir ki, Suriya xalqının bir hissəsini qıra-qıra, yaralaya-yaralaya, məhbəslərə ata-ata, işgəncə verə-verə axırda bütün üsyançıları ram edə biləcək.

Onun kimi adamlar üçün 21-ci əsr söhbəti yoxdur, onlar üçün sanki 16-cı əsrdir və qiyamı yatırtmaq üçün insan başlarından qala hördürmək lazımdırsa, onu da etmək olar. Bəşər Əsəd və onun kimilər hesab edirlər ki, Sultan Süleymana qalmayan dünya onlara qalacaq, qalmalıdır.

Hakimiyyət uğrunda qan tökmək vərdişini hələ ötən əsrin əvvəllərində tərgitmiş Avropa ərəb ölkələrində yaşanan insanlıq faciəsinə heyrətlə baxır və bir zümrənin bütün xalqı necə əzdiyinin şahidi olur. Qoca Avropa işə qarışmasa, çox çətin olacaq, müstəqil müstəbidlər öz xalqlarına məşəqqətlər yaşatmaqda davam edəcəklər.

Hər bir müstəbid bilməlidir ki, o, öz xalqını əzmək üçün güclüdürsə, ondan güclü olanlar da var. Dünya cəngəllik qanunları ilə idarə olunursa, onda istənilən diktator cəngəllikdə ov halına gələ bilər.

Biz (eləcə də amerikalı, avropalı həmkarlarımız) öz ölkəmizdə otura-otura bir müstəbidin öz xalqının başına oyunlar açacağını, on minlərlə insan öldürəcəyini, milyonlarla insanı öz evindən, vətənindən didərgin salacağını bilirdik, bu barədə yazırdıq, ancaq Suriyada nələrin baş verdiyini, verəcəyini bizdən on qat yaxşı bilən dünya liderləri qanlı diktatora dözümlü yanaşırdılar.

Bu gün Suriyanın hərbi bazalarının bombalanması gecdir. Bunu 6 il öncə etmək lazım idi, o vaxt vətəndaş müharibəsində ölənlərin sayı 10 minə çatmamışdı, bu gün 300 min civarındadır.

Hələ də Bəşər Əsədi dəstəkləyənlər "Suriyanın suverenliyi"ndən danışırlar. Hansı suverenlikdən söhbət gedir ki, Suriya beş yerə parçalanıb, şəhərlərinin daşı daş üstündə qalmayıb, suriyalı qaçqınlar Avropanı basıb, Bəşər Əsəd rejimi isə Rusiyanın və İranın köməyi olmasa İŞİD-in qarşısında belə aciz-avara qalır.

Yuxarıda istinad etdiyimiz yazıda bu suverenlik məsələsinə dair belə bir fikir də vardı: "Hər bir dövlətin suveren hüquqları varsa, hər bir insanın da yaşamaq, istəyəndə etiraz bildirmək hüququ var. Diktator bu hüquqa qəsd edirsə, artıq onun da hakimiyyətinə qəsd edilməsi haqqı yaranır".

Bu gün ABŞ və başqa ölkələr məhz həmin haqdan istifadə edirlər. Bəşər Əsəd hərbi cinayət törədib və bu addımlarına, günahsız insanları kimyəvi silahla öldürdüyünə görə beynəlxalq Haaqa tribunalında cavab verməlidir.

Hələ 6 il öncə ABŞ prezidenti Barak Obama, eləcə də İngiltərənin baş naziri Devid Kemeron, Almaniyanın baş naziri Angela Merkel, Fransa prezidenti Nikola Sarkozi buna çalışmalıydılar. Fəqət hamısı göz yumdu, Hitler xislətli birini özbaşına buraxdılar.

Ümid var ki, heç olmasa indi Bəşər Əsəd hansısa yolla hakimiyyətdən uzaqlaşdırılacaq, təqib ediləcək, ya Miloşeviç kimi tutulub Haaqaya aparılacaq, ya da Qəzzafi kimi linç ediləcək.

**Bunların heç biri olmayacaqsa, uzun-uzadı bəşəri dəyərlərdən danışmağın yeri yoxdur.**

# Avropa Məhkəməsinin cərimələri - qərarlar nə vaxt icra olunacaq?

## Əsabəli Mustafayev: "Hökumət demək istəyir ki, cərimələri ödəməyəcəm"

**Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) aprelin 6-da Azərbaycanla bağlı 11 iş üzrə qərarını elan etməsi barədə xəbər vermişdik. Beynəlxalq qurum ölkəmizi növbəti dəfə cərimələdi. Ödəniləcək kompensasiyaların məbləği 81690 avro təşkil edir.**

Qeyd edək ki, son aylarda Avropa Məhkəməsi tərəfindən tez-tez bu cür qərarların şahidi oluruq. Hökumət tərəfindən qərarların icrası yubadılır. Təsadüfi deyil ki, ötən il verilən qərarların heç biri icra olunmayıb. Bu isə məbləğlərin üzərinə faizlərin gəlməsinə səbəb olur. Hökumətin qərarların icrasını yubatması ilə bağlı müxtəlif fikirlər var. Belə iddia olunur ki, Avropa Məhkəməsinin nüfuzunu Azərbaycanda aşağı salmaq üçün qurumun qərarları icrasız qalır. Amma istənilən halda qərarların icrası qaçılmazdır. Çünki Azərbaycan Avropa Şurasına üzv qəbul edilərkən üzərinə götürdüyü öhdəliklərdən biri də bununla bağlıdır. 11 işdən 9-u vəkil Əsabəli Mustafayevə məxsusdur. Bununla onun Avropa Məhkəməsində udduğu işlərin sayı 106-ya çatıb.

**Vəkil "Yeni Müsavat"a açıqlamasında Azərbaycan hökumətinin qərarların icrasını yubatmaqla bağlı bunları dedi:** "Azərbaycan hakimiyyətinin nədən qərarların icrasını yubatması ilə bağlı məndə dəqiq fikir yoxdur. Amma bəzi ehtimallarım var. Maliyyə problemləri ilə bağlı olduğunu düşünürəm. Bu ehtimalın zəif tərəfləri də var. Yadımıza düşür ki, hökumət idman yarışları və müxtəlif tədbirlərə milyonlarla vəsait xərcləyir. Burada isə kompensasiyaların məbləği yenilər çıxılmaqla milyon yarım edə bilər. Hökumət üçün isə bu heç nədir. Daha bir ehtimal da onunla bağlıdır ki, hökumət ödənişi gecikdirməklə Avropa Məhkəməsinin nüfuzunu cəmiyyətdə aşağı salmaq istəyir. Yüzlərlə şikayət gedirdi. İnsanlar ən azından kompensasiyaya ümid edirdilər. Sanki hökumət demək istəyir ki, çox əziyyət



Əsabəli Mustafayev

çəkməyin, cərimələri ödəməyəcəm. Hökumət çox səhv mövqedədir. Milyonlarla vəsait xərcləyib öz nüfuzlarını qaldırırlarsa, o zaman belə addımlarla nüfuzlarına zərbələr dəydiyini anlamalıdırlar. Çünki bunlar beynəlxalq hesabatlara düşür, beynəlxalq aləm də bununla tanış olur. Hökumət xarici investorları ölkəyə dəvət edir, təminat verir. Amma məhkəmə qərarları icra olunmayan ölkəyə heç bir investor investisiya yatırmaz. Bu baxımdan hökumət ciddi düşünməlidir. Bir faktı da deyim ki, hökumət ödənişi gecikdirməklə həm də faizə oturur. Kompensasiyanı faizlə ödəməli olacaqlar. Bu da əlavə ziyan deməkdir. İndiyə qədər ödənişlərdə bu qədər problem yaranmayıb. Bu baxımdan demək çətindir ki, nə vaxta qədər ödəməyə bilər. Məsələn, Nazirlər Komitəsi bilirdi ki, Azərbaycan hökuməti ümumi tədbirləri yerinə yetirmir, ancaq kompensasiyaları vaxtında ödəyir. Ona görə də komitə digər hallara gözünü yumurdu. Amma indi kompensasiyaların ödənilməməsi ciddi hal alıb. Artıq düşünürəm ki, Nazirlər Komitəsi sərt addımlar atacaq. Hətta ola bilər ki, Azərbaycan hökumətinin xaricdəki əmlakları ilə bağlı hüquqi yolla müəyyən addımlar atılsın".

**Vəkil onu da bildirdi ki, kompensasiya alacaq şəxslərdən xaricdə olanlar var və onlar yaşadıqları ölkələrin məhkəmələrinə müraciət edəcəklər:** "Onlar hökuməti xaricdə məhkəməyə verməyə hazırlaşırlar. Təsəvvür edin ki, bir neçə ölkədə məhkəmə prosesləri başlayır və beynəlxalq aləm proseslərlə daha yaxından tanış olur. Aidiyyəti qurumlar ölkə daxilində müraciətlərə baxmasalar da, xaricdə belə deyil. Nəticədə kompensasiyalardan daha artıq məbləğlərlə hökumət ziyana düşə bilər. Hər bir dövlət Avropa Məhkəməsinin qərarını məcburi şəkildə olsa da, icra etməlidir. Belə hal olmayıb ki, hansısa dövləti qərarı icra etməkdən yayınsın. Ümid edirəm ki, Azərbaycan tərəfi məsələni daha da böyütməyəcək".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 72 (6686) 8 aprel 2017

**Arif Əsgərovun adı ətrafında hallanan qalmaqallara daha biri əlavə edilib. Nəqliyyat Nazirliyinin Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə birləşdirilməsindən sonra işsiz qalan nəqliyyat nazirinin müavini Arif Əsgərovun həbsdə olan digər baldızı oğlu da azadlığa buraxılıb.**

# Nazir müavininin milyonları mənimsəyən qohumunun azadlığa buraxılmasının pərdəarxası

## Arif Əsgərovun digər baldızı oğlu da azad olundu; bu işdə əsas fiqur olan sabiq nazir müavininin oğlu isə "yoxa çıxıb"





Musavat.com xəbər verir ki, Səbail Rayon Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə keçirilən prosesdə külli miqdarda dələduzluqda təqsirləndirilən Emil Hüseynovun barəsində seçilmiş həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsi ilə bağlı verilən vəsatətə baxılıb və Emil Hüseynov barəsində seçilmiş həbs qətimkan tədbiri ev dustaqlığı ilə əvəz edilib. O, məhkəmə zalından azadlığa buraxılıb.

Bildirək ki, E.Hüseynov bir neçə nəfərə qarşı külli miqdarda dələduzluq etməkdə təqsirli bilinərək həbs edilmişdi.

İttihama görə, Emil Hüseynov vətəndaşlar - Tural Hüseynovun etibarından sui-istifadə edərək ondan 382 min dollar, Namiq Mehtiyevdən 80 min manat, Emil Məmmədovdan 2 milyon 500 min dollar və Mərziyyə Rzayevadan 19 min 500 manat pul alıb. İş görmək adı ilə adı çəkilən şəxslərdən pul alan E.Hüseynov daha sonra həmin məbləğləri dələduzluq yolu ilə ələ keçirib.

Pullarını geri ala bilməyən şəxslər hüquq-mühafizə orqanlarına şikayət ediblər. Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat zamanı E.Hüseynov saxlanılıb. Onun barəsində Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda törəldildikdə) maddəsi ilə cinayət işi açılıb.

Cinayət işi materiallarına əsasən, E.Hüseynovu bu pulları Gürcüstandan mal gətirmək adı ilə alıb.

Zərərçəkmişlər məhkəmənin qərarından narazıdır.

**Zərərçəkmiş Tural Hüseynovun vəkili Emil Aslanov** musavat.com-a bildirib ki, təqsirləndirilən E.Hüseynov 2016-cı ilin dekabr ayında Qazaxıstanda həbs edilib. Vəkilin sözlərinə görə, təqsirləndirilən E.Hüseynov zərərçəkmişlərdən aldığı pulu geri qaytarmadığı üçün barəsində cinayət işi açılacağından öncədən xəbər tutduğu üçün ölkədən qaçıb: "Daha sonra onun barəsində İnterpol xətti ilə axtarış elan olundu və ötən il Qzaxıstanda həbs edilərək Azərbaycana təhvil verildi. Hakim Azər Tağıyev isə onu ev dustaqlığına buraxdı. Biz qərardan əvvəl məhkəmədə dəymiş ziyan barədə çıxış etdik. Mən çıxışımda bildirdim ki, Emil Hüseynov ev dustaqlığına buraxılan kimi yenə istintaqdan qaçacaq. Ali Məhkəmənin plenum qərarında göstərilib ki, ağır cinayətlərdə ev dustaqlığına buraxmaq olmaz. Bu, Bakı Ağır Cinayətlər Məhkəməsinə gedən bir iş idi. Lakin hakim onun vəsatətini təmin edib, azadlığa buraxdı".

**Vəkilin sözlərinə görə, ötən ay hakim A.Tağıyev təqsirləndirilən E.Hüseynovun adı dələduzluqda hallanan qardaşı Rahib Hüseynovu da məhkəmə zalından azadlığa buraxıb:** "Rahib Hüseynov da dələduzluqda təqsirli bilinirdi. Hakim Azər Tağıyev onun vəsatətini təqdim edərək, Rahib Hüseynovu da azadlığa buraxdı".

Bildirək ki, Rahib Hüseynovun adı 48 milyon manatlıq mənimsəmə işində hallanır.

Vəkil Emil Aslanov deyib ki, Arif Əsgərovun baldızı oğlunun azadlığa buraxılması ilə bağlı çıxarılan qərardan apelyasiya şikayəti verəcəklər:

"Həmçinin məhkəmənin qərarından sonra prezident İlham Əliyevə, birinci vitse-prezident Mehriban Əliyevaya, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədova və Ali Məhkəmənin sədri Ramiz Rzayevə müraciət edəcəyik".

Arif Əsgərovun oğlu haradadır?

**E.Aslanovun sözlərinə görə, təqsirləndirilən Emil Hüseynov hüquqlarını müdafiə etdiyi şəxsə dəymiş 382 min dolların bir qismini qaytarıb:** "Ancaq Emil Hüseynov bildirib ki, qatqı malları gətirdiyinə görə müvəkkilinin pulu 955 min manat olub. Tural Hüseynov isə həmin puldan keçərək, ona verdiyi 382 min dollarının qaytarılmasını istəyir. Bu pulu da 2015-ci ilin fevral ayının 13-nə qədər qaytarmalı idi. Lakin Emil Hüseynov pulu geri qaytarmayıb. Buna görə də müvəkkilimin işlətdiyi mağaza bağlandı. Həmin malın müqabilində də aylıq 20-30 faiz pul qazanırdı. Həmin pulları 2 il ərzində qaytarmadığına görə maddi ziyan vurub. Bu da 435 min 288 dollar edir. Bundan əlavə, 50 min manat da maddi ziyan vurub. Ümumilikdə cinayət işinin tərkibinə 1 milyon manata yaxın mülki iddia qaldırmışıq".

Bildirək ki, Arif Əsgərov 2004-2015-ci illərdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri vəzifəsində çalışıb. A.Əsgərov 2015-ci ildə prezidentin fərmanı ilə tutduğu vəzifədən azad edildi. Başqa bir fərmanla o, nəqliyyat nazirinin müavini təyin edilib.

A.Əsgərovun adı heç də kiçik qalmaqallarda çəkilməyib. Hələ 2013-cü ildə QSC-də külli miqdarda- 48 milyonluq yeyinti faktı aşkarlanıb.

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları QSC-nin marketinq şöbəsinin rəisi Arif Əsgərovun baldızı oğlu Rahib Hüseynovu həbs etmişdilər. Ancaq sonradan məlum olmuşdu ki, bu işlərə rəhbərlik edən şəxslərdən biri elə A.Əsgərovun oğlu, "Liman Group" şirkətinin rəhbəri Elnar Əsgərovdur. Amma o, məsuliyyətdən kənarda qalmağı bacardı.

**Arif Əsgərovun oğlunun isə ölkəni tərk etdiyi bildirilir.**

❑ **İlkin MURADOV**

# MSK rəsmisindən milyonlarla mənimsəmə ittihamına cavab

## Mikayıl Rəhimov: "O bülletenlər Milli Məclisin mətbəəsində birbaşa dövlətin nəzarəti altında çap edilib"



**Mərkəzi Seçki Komissiyasında (MSK) milyonlarla pulun mənimsənilməsi barədə şok məlumatlar yayılıb. "AzadlıqRadiosu"nun saytında bununla bağlı gedən yazıda ötən ilin sentyabrındakı referendumda MSK-nin külli miqdarda pulu yoxa çıxardığı göstərilib.**

Referendumla bağlı çap olunan bülletenlərin hər birinin 1 manat 72 qəpiyə başa gəldiyi bildirilir. MSK bu məbləği Milli Məclisin Aparatının mətbəəsinə ödəyib. Burada söhbət 5 milyon 270 min 613 seçici sayı qədər çap edilən bülletenlərdən gedir. Təkcə çap işlərinə sərf olunan 9,1 milyon manatdır. Kağız alınmasına da xeyli vəsait xərclənib.

Referendumla bağlı vəsaitlərin əsas hissəsi çap işlərinə sərf olunub. Milli Məclisin mətbəəsinə bu məqsədlə ümumi dəyəri 15.7 milyon manatdan çox olan 9 sifariş verilib. Təkcə seçicilərə paylanan əl boyda bildirişlərin çapı üçün 1 milyon 557 min 872 manat 58 qəpik ödənilib. MSK ilə parlamentin mətbəəsi arasında razılaşma belədir:

- 1 ədəd səsvermə bülleteni - 1 manat 72 qəpik;
- 1 ədəd səsvermənin yeri və vaxtı barədə bildiriş - 25.91 qəpik.

Bunlardan başqa, MM-in mətbəəsi 2016-cı ildə dövlət büdcəsindən təşviqat plakatlarının çapı üçün 2 milyon 265 min 600 manat; istiqamətverici, maarifləndirici, təşviqat plakatlarının və kitabçaların çapı üçün 1 milyon 245 min 502 manat; «Yaddaş kitabçası» və trafaretlərin çapı üçün 869 min 424 manat və Referendum aktı layihəsinin çapı üçün 672 min 600 manat vəsait alıb.

MSK ilə fəal biznes münasibətlərində olan şirkətlərdən biri lPluton C» MMC-dir. 2009-cü ildə Bakı şəhəri, Binəqədi rayonu, 2-ci mədən küçəsində yaradılan bu şirkətin nə əlaqə telefonu, nə də internet səhifəsi var. Şirkətin MSK ilə əməkdaşlığının tarixçəsi də məlum deyil. O səbəbdən ki, ölkədə seçkilərin keçirilməsinə cavabdeh olan bu qurum 2017-ci ilədək iri satınalmalara dair məlumatları, demək olar ki, açıqlamayıb. Nə mediada, nə qurumun saytında, nə də satınalmaların tənzimlənməsinə məsul olan İqtisadiyyat Nazirliyinin idarə etdiyi tender.gov.az portalında bu haqda bir məlumat var.

2016-cı ildə «Pluton C» şirkəti MSK-dan 8 birbaşa müqavilə bağlamaq yolu ilə 5 milyon 277 min 135 manat alıb. Seçki məntəqələrində yerləşdiriləcək 10 min məlumat lövhəsinin hazırlanmasına görə şirkətə 1 milyon 365 min 625 manat ödənilib. Yəni, bir ədədinə görə 136 manat 56 manat. MSK 552 ədəd daşınmaz seçki qutusunun satın alınmasına görə «Pluton S» MMC-yə 131 min 900 manat ödəyib. Bir belə qutu büdcəyə 238 manat 94 qəpiyə «oturub».

Bu qutulardan savayı, MSK həmin şirkət vasitəsilə ötən il daha 5 min 500 ədəd seçki qutusu və 19 min ədəd gözlə görünməyən ultrabənövşəyi mürəkkəb alıb. Buna görə şirkətə 1 milyon 749 min 173 manat ödənilib. MSK bildirir ki, məntəqə seçki komissiyalarında 15 min 400 ədəd səsvermə kabinetləri var. Son referendumda onların işıqlandırılması üçün lampaların satın alınmasına 377 min 977 manat pul xərcləndiyi bildirilir. Bir «işıqlı» kabinet «Pluton C» MMC-nin köməyi ilə 24 manat 54 qəpiyə başa gəlib.

Gözəgörünməz mürəkkəbi müəyyən edən detektor və bu detektorlar üçün batareya alınması xərci 499 min 305 manat olub. Ölkədəki bütün seçki məntəqələrinin sayını nəzərə alsaq, bir ədəd detektora görə «Pluton C» MMC-yə 88 manat 73 qəpik ödənilib. Bu, həmin dövrdə Azərbaycanda qüvvədə olan minimum əmək haqqından 16 manat 27 qəpik az idi.

Qeyd olunanlardan başqa, «Pluton C» MMC MSK-nı ümumi dəyəri 691 min 244 manat olan ofset kağızı, tabaşirli kağız və ağ yazı kağızı ilə təmin edib. Şəffaf lövhəcik qabları üçün 99 min 120 manat, zəncirli sənəd çantası, kisə və protokollar üçün xüsusi qovluqların alınmasına görə 362 min 791manat da bu şirkət vasitəsilə istifadə olunub.

MSK-nın saytında ümumxalq səsverməsinə (referenduma) yekun vurulması və yekunların elan edilməsi haqda o da qeyd olunur ki, referendumun keçirilmə tarixi və səsvermə qaydalarına dair müxtəlif məzmunlu 7 reklam çarxı Isəsvermə günü də daxil olmaqla, mütəmadi şəkildə hər gün müxtəlif televiziya və radio kanallarında nümayiş etdirilib». Bu video-çarxların hazırlanmasına görə lPrime-Time» MMC-yə 180 min 395 manat ödənilib.

**MSK katibi Mikayıl Rəhimov** qurum barəsində səslənən ittihamları əsassız sayır: "1993-cü ildən ölkəmizdə referendumlar keçirilib. Bunların heç birində qeyri-adi heç nə yoxdur. O bülletenlər Milli Məclisin mətbəəsində çap edilib, birbaşa dövlətin nəzarəti altında. Orada qaydaları pozmaq, qanun pozuntuları etmək mümkün olan məsələ deyil. Kim nə yazıbsa yazıb, uydurma fikirlərdir. MSK katibi olaraq, bu istiqamətdə hər hansı bir araşdırmaların aparıldığının şahidi olmamışam. Bunu MSK-nin fəaliyyətinə, gördüyü işlərə kölgə salmaq cəhdi kimi qiymətləndirirəm. Bu yanlış dezinformasiyaları yaymaq dövlətimizə, onun strukturlarına ləkə salmaq istəyən insanların işidir. Kim nə araşdırma aparırsa, nəsə üzə çıxarıbsa, bunu MSK-ya deməlidir. Belə dezinformasiyalar yaymaqla nəyəsə nail olmaq olmaz. Bu mümkün deyil ki, MSK-da korrupsiya hallarına yol verilsin. Bülletenlər birinci dəfə deyil ki çap olunub. Kağızın qiyməti məlumdur. Çap işi dövlət orqanının mətbəəsində aparılır. Belə yazılara söz tapmaq çətindir. Kimin nə iradı varsa, nə görübsə, MSK ilə bölüşə bilər. Konkret informasiya verə bilərik ki, hansısa işi görmək üçün nə qədər vəsait sərf olunub. Bizim işimiz demokratik, şəffaf seçki keçirməkdir. O ittihamlar bizə deyilməyib, cəmiyyəti aldatmaq üçün ortaya atılıb. MSK-nı belə şeylərlə ittiham etmək düzgün deyil. Qanunvericiliyin tələblərinə uyğun şəkildə bülletenlərin çapının sifarişi verilir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 72 (6686) 8 aprel 2017

**Aprelin 7-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Cari məsələlərin müzakirəsi zamanı deputatlar Rusiya Ədliyyə Nazirliyinin Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) qeydiyyatının ləğvi ilə bağlı Ali Məhkəməyə etdiyi müraciətə kəskin etiraz bildirdilər.**



# Milli Məclisdən Rusiyaya sərt etirazlar

## Parlamentdə "Banklar haqqında" qanunun müzakirəsi gərgin keçdi; Oqtay Əsədov: "Bu dəyişikliklərin əsas mahiyyəti bank sektorunun sağlamlaşdırılmasına xidmət edir"

**Deputat Siyavuş Novruzov** bildirdi ki, bu, Azərbaycanı narahat edən əsas məsələdir: "Azərbaycanda 300-dən artıq rus məktəbi, ayrı-ayrı universitetlərin filialları fəaliyyət göstərir. Azərbaycan Ermənistanı çıxmaq şərtilə, həmişə qonşuları ilə normal münasibətləri saxlamağın həmişə tərəfdarı olub, cənab prezident də daim bu siyasəti yürüdüb. Hansısa qüvvələrin bu məsələləri qızışdırması iki ölkə vətəndaşları arasında narazılığa səbəb olub. Dostluq qrupu və digər insanlar müraciət etməlidir ki, bu məsələ həllini tapsın. Araya girən şəxslər başa düşsünlər ki, Azərbaycan Rusiya ilə münasibətlərə həmişə önəm verib, Kiçik bir məsələ ilə iki ölkənin əhalisi arasında narazılıq yaratmaq lazım deyil".

**Deputat Zahid Oruc** da həmkarının mövqeyini müdafiə etdi: "ÜAK-n qeydiyyat ilə bağlı məsələnin iki dövlət arasındakı starteji münasibətlərə uyğun deyil. Ümid edirəm ki, bu məsələ Rusiya elitasına çatacaq və məsələ həll olunacaq".

**Deputat Elmira Axundova** da ÜAK-ın çox ciddi və güclü təşkilat olduğunu, bölgələrdə 74 təşkilatının fəaliyyət göstərdiyini, üstəlik, yüzlərlə xeyriyyəçilik işlərini həyata keçirdiyini bildirdi: "Guya sənədlərdə texniki problem olub. Amma əminəm ki, səbəb başqadır. Rusiyada yüzlərlə erməni təşkilatları var. Bu yaxınlarda Rusiyada "Bolşaya Armeniya", "Novo Naxiçevanskie" təşkilatları peyda olub. Bütün bu qanunsuz əməllərə nədənsə Rusiyanın müvafiq orqanları göz yumur. Əminəm ki, burada da erməni izi var və heç də səbəb texniki məsələ deyil".

**Deputat, Azərbaycandakı rus icmasının rəhbəri Mixail Zabelin** də qeyd etdi ki, bu addım Rusiyadakı və Azərbaycanda sabitliyin pozulmasına, iki ölkənin münasibətlərini korlamağa xidmət edir. Deputat dedi ki, Rusiya XİN, Rusiya səfirliyi və digər qurumlarla əlaqələr saxladığını bununla bağlı narahatlığını ifadə edib. Mən əminəm ki, Rusiyanın Ədliyyə Nazirliyinin müraciəti məhkəmədə qəbul olunmayacaq və ÜAK fəaliyyətini davam etdirəcək.

**Deputat Əhliman Əmiraslanov:** "Bu təşkilatı qeydiyyatdan keçirməmək Rusiyada böyük nüfuza malik olan insanlara və quruma qarşı təxribatdır. Bu əmələ yol verənlər Azərbaycana qarşı düşmən mövqeyində olan adamlardır, dostluq münasibətlərinə yönəlmiş zərbədir".

**Dostluq qrupunun rəhbəri, deputat Əli Hüseynli** Ədliyyə Nazirliyinin qeydiyyatın ləğvi ilə bağlı narahatlığını ifadə etdi: "Eyni zamanda biz bunu təxribat kimi dəyərləndiririk. Araşdırsaq, Rusiya icmasının da sənədlərində müəyyən nöqsanlar mövcuddur. Amma heç zaman bu qurumun ləğvi ilə bağlı məsələ qaldırılmayıb. Bu, ən son anda əl atılası addımdır. Rusiyadakı dairələr bilməlidir ki, bu, hüquqi məsələ olsa da, bizi çox narahat edən siyasi addımdır". Ə.Hüseynli məsələ ilə bağl Rusiyadakı müvafiq qurumlara müraciət edəcəyini dedi.

**Deputat Çingiz Qənizadə** də məsələdən narahat olduğunu dedi: "Bu təşkilatın yaradılmasında mərhum prezident Heydər Əliyevin iradəsi rol oynayıb və V.Putin də öz razılığını verib. Amma biz bu prosedurları izlədikcə görürük ki, ortada müəyyən maraqlar var. İstisna deyil ki, burada erməni barmağı var. Ancaq bəs niyə Rusiyanın rəsmi qurumları bu çirkin oyuna düşüblər? Azərbaycanda 350-dən çox məktəbdə rus dili tədris olunur, bütün ali məktəblərdə rus

### Qüdrət Həsənquliyev: "Mənim bankda pulum varsa, bunun maliyyə bazarlarına nəzarət orqanına nə aidiyyəti var?"

dili fakültələri var və 16 min nəfər rus dilində təhsil alır". **Ç.Qənizadə məhkəmənin bu qanunsuzluğu rədd edəcəyinə ümid etdiyini vurğuladı:** "Əks halda təbii ki, biz dövlət olaraq öz sözümüzü deyəcəyik".

**QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri, deputat Azay Quliyev** də Konqresin Rusiya-Azərbaycan dostluğunun simvoluna çevrildiyini söylədi. "Son 16 il ərzində hər iki dövlətin rəhbərliyi bu quruma etimad edib. Bu gün biz Rusiya Prezidenti Yanında İctimai Palataya məktub ünvanlamışıq. Düşünürəm ki, onlar öz nüfuzundan istifadə edib Ali Məhkəmənin doğru qərar qəbul etməsinə öz töhfəsini verəcəklər".

***

Daha sonra Azərbaycanda **İnsan Alverinə qarşı Mübarizə üzrə milli koordinator, daxili işlər nazirinin birinci müavini, general-leytenant Vilayət Eyvazov** Milli Məclis üzvləri qarşısında illik hesabatını təqdim etdi. Nazir müavini bildirdi ki, 2016-cı ildə Azərbaycanda həyata keçirilmiş əməliyyat-profilaktik tədbirlərlə 2015-ci illə müqayisədə 29,4 faiz çox və ya 141 insan alveri faktı aşkarlanıb, 15 cinayətkar qrup zərərsizləşdirilib və həmin cinayətlərin qurbanı olmuş 70 şəxs müəyyən edilib, onların hər birinə 400 manat məbləğində birdəfəlik müavinət verilib, 25-i işlə təmin edilib, 38 nəfər peşə kurslarına göndərilib: "Ərazi polis orqanları, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən keçirilmiş reydlər zamanı küçə həyatına məruz qalan, dilənçilik edən və qeyri-qanuni qulluğa cəlb olunan 600-ə yaxın azyaşlı müəyyən edilib. Müvafiq yoxlamalarla həmin uşaqların insan alverinin və məcburi əməyin qurbanı olması təsdiqlənib. Bununla belə, övladlarının təlim-tərbiyəsi ilə bağlı vəzifələri yerinə yetirməyən, onları hüquqazidd əməllərə cəlb edən 240 valideyn barəsində inzibati tənbeh tədbirləri tətbiq olunub".

Məruzə ətrafında çıxış edən **deputat Siyavuş Novruzov** diqqəti insan alveri probleminə yönəlməyə çalışdı: "Ona görə də hamımız çalışmalıyıq ki, mübarizəmizin effekti daha da artsın".

**Deputat Tahir Kərimli** hesabatı yüksək qiymətləndirməklə yanaşı, milli koordinatorun gördüyü işləri qiymətləndirməyi vacib saydı. "Mən vaxtilə o qədər həyacanlıydım ki, əxlaq polisinin yaradılmasını təklif etmişdim. Amma son illər çox ciddi nəticələr əldə olunub". T.Kərimli dedi ki, ötən illə müqayisədə dilənçiliyə cəlbetmə faktları 450-dən 600-ə qalxıb və bu, çox narahatedicidir.

### "Araşdırsaq, Rusiya icmasının da sənədlərində müəyyən nöqsanlar mövcuddur"

### Siyavuş Novruzov: "Banklarda niyə belə vəziyyət yaranıb, bu suala cavab verilməlidir"

**Deputat Qənirə Paşayeva** insan alverinə qarşı mübarizənin daha da sərtləşdirilməsinə zərurət olduğunu vurğuladı.

**Birinci vitse-spiker Ziyafət Əsgərov** insan alveri ilə mübarizədə bütün cəmiyyətin səfərbər olunmasını və birgə mübarizəni effektli saydı.

Səsvermə ilə hesabat qəbul edildi.

"Satınalmalarla bağlı cəzaların qanunda nəzərdə tutulması çox ciddi addımdır". **Deputat Elmira Axundova** bunu Cinayət Məcəlləsinə edilən dəyişikliklərlə bağlı bildirdi. Deputat dövlət əmlakına qəsd edən şəxslərə qarşı "ya cəza, ya cərimə" cəzasının tətbiqini doğru saymadı, burada alternativin olmasına etiraz etdi: "Cəza sərt və konkret olmalıdır".

**Deputat Qüdrət Həsənquliyev** isə bildirdi ki, məsuliyyət daşıyan şəxsləri istintaq orqanı müəyyənləşdirəcək, burada konkret şəxs və ya şəxslərin, cinayət qrupun olmasını dəqiqləşdirəcək. Deputat büdcə vəsaitlərinə ciddi nəzarət edilməsini zəruri saydı: "Burada qeyd olunur ki, 50 min manata qədər ziyan vurulduqda bu, cinayət məsuliyyəti yaradır. Yəni faktiki olaraq satınalmalar zamanı tender keçirmədən dövlət əmlakının mənimsənilməsi, yaxud qiymətinin fərqli yazılması halları baş verdikdə. Biri avtobusda kiminsə cibinə girir, digəri də dövlət əmlakına qəsd edir. Biri getdi su sayğacını oğurladı, onun misini satdı, yaxud büdcə vəsaitini oğurladı, bunun heç bir fərqi yoxdur. Bizdə oğurluğa görə cəza vətəndaşın oğurladığı əmlakın 30 manatdan artıq dəyəri olduğu halda, bunun cəzası 2 ilə qədər həbs cəzasını nəzərdə tutur. Amma burada 50 min manata qədər vəsait oğurlayan inzibati məsuliyyət yaradır. Belə çıxır ki, biz vəzifəli şəxslər üçün başqa cəza nəzərdə tuturuq, adi vətəndaşlar üçün başqa. Yaxud Cinayət Məcəlləsində 7 min manata görə 6-12 illik cəza nəzərdə tutuluq. Amma burada dövlətə 250 min manat ziyan vurana 2-4 illik cəza nəzərdə tutulur".

**Komitə sədri Əli Hüseynli** qeyd etdi ki, burada daha çox dəymiş ziyanın ödənilməsində maraqlı olmalıyıq, nəinki cəzanın daha çox sərtləşdirilməsində.

**Bundan sonra qanuna dəyişiklik qəbul edildi.**

"Banklarda faiz dərəcələrinin həddən artıq soyğunçu xarakter daşıması və dollar kreditləri ilə bağlı nəhayət, qərar verilməlidir". Bunu isə **deputat Əli Məsimli** söylədi. Deputat ardınca konkret təklif verdi: "Qoy banklar 28 maya qədər 1000 dollara qədər olan kreditləri bağlasın".

**Deputat Qüdrət Həsənquliyev** dedi ki, son dəyişikliklər vətəndaşların banklara etimadının artmasına yönəlib. Ancaq ardınca o, bank sirlərininin qorunması ilə bağlı dəyişikliyə etirazını bildirdi: "Biz çalışırıq ki, sahibkarlar, vətəndaşlar öz pullarını banklarda saxlasın. Mülkü Məcəllənin 967-ci maddəsi bank sirləri ilə bağlıdır. Əvvəllər belə idi ki, bank sirləri müştərilər və onların nümayəndələrinə verilirdi. İndi biz qanuna dəyişiklik edirik ki, bu sirlər kənar auditorlar və Maliyyə bazarlarına Nəzarət Palatasına verilir. Mənim bankda pulum varsa, bunun maliyyə bazarlarına nəzarət orqanına nə aidiyyəti var? Niyə bu qurum vətəndaşların bank sirlərini bilməlidir? Q.Həsənquliyev əlavə etdi ki, bank sirlərinə daxil olan şəxslərin siyahısını genişləndirməklə vətəndaşların banklarda maliyyə saxlamasını təmin edə bilməyəcəyik: "Əksinə, vətəndaşlar maliyyəsini İsveçrə və digər banklara daşıyacaqlar. Harada ki, bank sirləri daha etibarlı qorunur. Ya da heç kim gətirib pulunu Azərbaycan banklarında saxlamayacaq. Bir tərəfdən hökumət, cənab prezident müraciət edib ki, pullarınızı Azərbaycan banklarında saxlayın. Məncə, indi bu cür addımlar ümumi işə xidmət etmir. Biz məhkəmə qərarı olmadan bankın lisenziyasının bağlanması səlahiyyətini də palataya veririk. Mən bu haqda geniş danışacağam. Biz bank sektorunda nizam-intizam yaratmaq istəyirik, yoxsa nəyə nail olmaq istəyirik?".

**Deputat Siyavuş Novruzov** Azərbaycanda bankın bu vəziyyətə düşməsinin səbəbi iqtisadi böhran deyil: "Bu Azərbaycanda bank sahəsinə nəzarət edən şəxslərin, məsuliyyət daşıyan adamların maliyyə oğurluğu ilə əlaqədardır. Həmçinin vətəndaşın kredit problemləri ilə bağlı vəziyyətin səbəbkarı banklardır. Niyə belə vəziyyət yaranıb, bu suala cavab verilməlidir. Yoxsa burada körpü bankı yaratdım, ordan başqa bir banka keçdi... Biz hardan biləк ki, körpü bankı yaradılandan sonra həmin problemlər yenidən ortaya çıxmayacaq. Vaxtilə də Mərkəzi Bankda nəzarət var idi. Amma hərəyə 1 milyard verdilər, götürüb getdilər və ciddi problemlər yarandı. Məsuliyyət daşıyan adamlar bu məsələlərə nəzarət etməldir. Bu məsələləri iqtisadiyyatımızın durumu ilə bağlamaq olmaz. Banklar kökündən sağlamlaşmalıdır. Bir nəfər izah etmir ki, Azərbaycanda vətəndaşa verilən istehlak kreditinin faizi niyə bu qədər yüksək faizədir? Vətəndaş da kredit götürüb iş qursun, büdcəyə vergi ödəsin. Sağlamlaşdırsınlar, amma yaxşı sağlamlaşdırsınlar".

**Deputat Vahid Əhmədov** isə dedi ki, Azərbaycan iqtisadiyyatına ən ağır zərbəni banklar vurub: "Bütün bunları nəzər alan cənab prezident vəziyyəti yaxşılaşdırmaq üçün Maliyyə Bazarlarına Nəzarət Palatasını yaradıb. Niyə Azərbaycan bank faizləri bu qədər yüksəkdir, onu Siyavuş müəllim çox yaxşı dedi. Çünki həmin bankçılar hamısı milyonerdirlər, amma vətəndaşlar əziyyət çəkirlər". V.Əhmədov qeyd etdi ki, bank sistemində problemlər olduğu kimi qalır.

**Deputat Aydın Mirzəzadə** də bank faizlərinin tədricən aşağı salınmasını zəruri saydı.

Etirazlara baxmayaraq, qanun səsə qoyularaq qəbul edildi.

**Deputat Fuad Muradov** ciddi məsələyə diqqət çəkdi. O bildirdi ki, bu gün banklar QHT-lərə limitlə vəsait ayırmağa qərar verib. Bu limitin həcmi isə 5 min manatdır. "Əslində bu, bizim QHT-lərə zərbədir. Çünki QHT-lər bütün dünyada dövlət sifarişini həyata keçirmirlər" - F.Muradov bildirdi.

**Spiker Oqtay Əsədov** isə deputata cavabında "əgər biz belə bir qanun qəbul etmişiksə, onda sən də iştirak etmisən, səs vermisən"- deyə reaksiya verdi.

Dəyişikliklər olduğu kimi saxlanıldı və qəbul edildi.

"Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında" qanun layihəsi barədə komitə sədri Arif Rəhimzadə məlumat verdi. Müzakirələrdən sonra qanun qəbul edildi.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 72 (6686) 8 aprel 2017

**Aprelin 7-də Bakı vaxtı ilə səhərə yaxın saat 4-dən 5-ə kimi ABŞ ordusunun Aralıq dənizində yerləşdirilmiş iki hərbi gəmisindən Suriya ordusunun bazasına 70 raket atılıb. CNN-in xəbərinə görə, zərbələr Suriya hökumət ordusunun Homs vilayətində yerləşən Şayrat hərbi bazasına endirilib. Zərbələrdən dərhal sonra xalqa müraciətlə çıxış edən ABŞ prezidenti Donald Tramp bu addımın öz xalqına qarşı kimyəvi silah işlətmiş Bəşər Əsəd rejiminə qarşı qisas addımı olduğunu bəyan edib. Buna qarşılıq olaraq, ABŞ Konqresinin bəzi üzvləri raket zərbələrinin parlamentlə razılaşdırılmadığını qeyd ediblər.**



# Tramp böyük müharibənin düyməsini basdı

## Bəşər Əsədin avibazaları, təyyarələri bombardman edildi; **Şahin Cəfərli:** “Moskva yavaş-yavaş anlamağa başlayır ki, ABŞ seçkilərində “yanlış ata oynayıb" və bəlkə də Hillari Klintonun seçilməsi daha əlverişli olarmış"

NBC telekanalı Suriya ordusunun bazasına “Tomoqavk” tipli raketlərlə hücum edildiyini bildirib. “Frans Press” raketlərin sayının 70-ə bərabər olduğunu yazır. Amerika mənbələrinə görə, raket zərbələri kimyəvi silahın tətbiq edildiyi bildirilən hərbi bazaya yönəlib.

“Tomoqavk” zərbələri nəticəsində Suriya ordusunun Şayrat aviabazasında biri general olmaqla çoxsaylı hərbçi öldürülüb, 15 hərbi təyyarə məhv edilib. Bu barədə Amerika mənbələri xəbər verir. İnternetdə yayılmış görüntülərə əsasən aviabazada raketlər bir-birinin ardınca partlayır, alov səmaya qalxır. **Öldürülən generalın hərbi bazada dislokasiya olunmuş 2-ci briqadanın komandiri Xəlil İssa İbrahim olduğu bildirilir.** Mənbələr Suriyaya yeni raket hücumlarının gözlənildiyini xəbər verib. Xatırladaq k, ABŞ-ın Əsəd rejiminə qarşı bu raket zərbələri Suriya aviasiyasının aprelin 3-də İdlib əyalətinin Xan-Şeyxun qəsəbəsinə endirdiyi kimyəvi silah zərbələrinə cavabdır. Həmin hücumda yüzdən çox mülki sakin həlak olub. Onların arasında çoxsaylı azyaşlılar da var.

Raket zərbələrindən sonra mətbuat konfransı keçirən dövlət katibi Reks Tillerson bəyan edib ki, Trampın bu qərarı “ölkələrin qırmızı xətti keçdiyi halda nə baş verəcəyini” göstərir. Tillerson bildirib ki, ABŞ artıq Bəşər Əsədin hakimiyyətdən uzaqlaşdırılmasına yönəlmiş tədbirlər görür.

Dövlət katibinin sözlərinə görə, raket zərbələrindən əvvəl Rusiya rəhbərliyi ilə diplomatik



kanallarla təmas yaradılmayıb. Bununla belə ABŞ və Rusiya hərbçiləri arasında Suriyada koordinasiyaya dair razılaşmalara əməl olunub. Bu isə o deməkdir ki, hərbi kanallarla raket zərbələri barədə Rusiya tərəfi xəbərdar edilib.

Suriya mənbələrinin bildirdiyin görə, Amerikanın raket zərbəsindən əvvəl Şayrat aviabazasının personalı evakuasiya olunub və bu səbəbdən tələfat az olub. Şahidlərin dediyinə görə bu, hücumdan bir neçə dəqiqə əvvəl baş verib. Raket zərbələri hərbi aeroportun nəzarət qülləsini, təyyarələrin olduğu anqarları, sursat anbarını, uçuş-enmə zolağını dağıdıb. İsrail və Səudiyyə Ərəbistanı ABŞ-ın raket zərbələrini dəstəkləyib. Baş nazir Benyamin Netanyahu bildirib ki, ABŞ bununla bütün dünyaya nümunə göstərib.

ABŞ-ın raket zərbələrinin ardınca İsrail aviasiyasının da Suriyanın Dəraa vilayətinə zərbələr endirdiyi haqda sosial şəbəkələrdə xəbərlər yayılıb. Bildirilir ki, zərbələr əl-Manşiyah bölgəsinə endirilib. İsrail ordu komandanlığı məlumatı şərh etmir. Bununla belə xəbər verilir ki, İsrail aviasiyasının zərbələrindən sonra Azad Suriya Ordusunun dəstələri həmin istiqamətdə hücuma keçiblər. Kürd mənbələri isə xəbər verir ki, raket zərbələrindən sonra Deyr əz-Zor bölgəsində Amerika ordusu desant çıxarıb. Desantın iki vertolyotdan endirildiyini və Hamat-ə-Tabani rayonunda hansısa avtomobilə hücum olduğu bildirilir. Avtomobildəkilərin hamısı öldürülüb. Ehtimal edilir ki, bu, İŞİD liderlərindən hansısa birinə qarşı xüsusi əməliyyatdır.

Suriya hökuməti ABŞ-ın raket zərbələrinə rəsmi münasibətini açıqlayıb. Suriyanın informasiya naziri zərbələri məhdud və gözlənilən adlandırıb. O, gərginliyin artması üçün əsas görmədiyini bildirib.

Donald Trampın bu cür sərt addımı atması bütün dünyada bir nömrəli hadisəyə çevrilib. ABŞ-ın Suriya zərbə endirməsi Rusiya və İranın etirazı ilə qarşılanıb.

Rusiya prezidenti ABŞ-ın raket zərbələrini Suriya suverenitetinə qarşı aqressiya, beynəlxalq hüquq normalarının pozulması kimi qiymətləndirib. Bu barədə Kremlin mətbuat katibi Dmitri Peskov bəyan edib. O deyib ki, Suriya ordusu kimyəvi silah ehtiyatına sahib deyil. Suriya ordusuna məxsus kimyəvi silah ehtiyatının məhv edilməsi barədə faktlar BMT-də var: “Putinin fikrinə görə, kimyəvi silahın terrorçular tərəfindən istifadə edilməsi faktının rədd edilməsi vəziyyəti qəlizləşdirir. Bundan başqa, ABŞ Suriyaya zərbə endirməklə dünya ictimaiyyətinin fikrini İraqın mülki əhalisinin qırılması faktından yayındırır. Rusiya prezidenti düşünür ki, Vaşinqtonun bu addımı rus-amerikan münasibətlərinə zərbədir. Bu addım beynəlxalq terrorizmlə mübarizə məsələsində məqsədimizə yaxınlaşdırmır, əksinə beynəlxalq terrora qarşı koalisiya yaratmaq işinə əngəl törədir”.

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov isə bildirib ki, ABŞ-ın Suriyadakı aviabazaya raket zərbələri saxta bəhanəsi olan təcavüz aktıdır:** “ABŞ-ın Suriya aviabazasına raket zərbələri 2003-cü ildə İraqdakı vəziyyəti xatırladır. Bu, tamamilə saxta bəhanəsi olan təcavüz aktıdır. Bu hadisə 2003-cü ildə ABŞ və Böyük Britaniyanın bir neçə müttəfiqləri ilə İraqa hərbi müdaxiləsini xatırladır”.

ABŞ-ın bombardmanından sonra Rusiya BMT-nin Təhlükəsizlik Şurasını təcili iclasa çağırıb.

Rusiyanın BMT-dəki daimi təmsilçisinin köməkçisi Vladimir Safronkov ABŞ-ın Suriyaya hərbi müdaxiləsinin pis nəticələrə səbəb olacağını bildirib.

Bundan başqa Rusiya ABŞ hərbi gəmilərinin Suriya ərazisinə endirdiyi raket zərbələrindən sonra Suriyayla bağlı ABŞ-la imzaladığı memorandumu dayandırıb. Memorandumun fəaliyyətinin dayandırılması ilə bağlı dünən Rusiya XİN bəyanat yayıb. Bəyanatda deyilir ki, Rusiya Suriyadakı əməliyyatlarda uçuşların təhlükəsizliyinin təmin edilməsi və insidentlərin qarşısının alınması ilə bağlı ABŞ-la imzaladığı memorandumun işini dayandırıb.

**İranın Xarici İşlər Nazirliyinin sözçüsü Behram Qasimi** isə deyib ki, ABŞ Suriyanı bombalamaqla beynəlxalq hüququ pozub və terrorçulara yardım edib: “Endirilən hava zərbələrinin Suriyadakı vəziyyəti daha gərginləşdirəcəyinə inanırıq”.

**Türkiyə hökuməti isə ABŞ-ın addımını müsbət qarşılayıb. Bu barədə açıqlamanı Türkiyə hökumətin mətbuat katibi Numan Kurtulmuş verib. Açıqlamada deyilir ki, Türkiyə hərəkatı müsbət qarşılayır, Əsəd rejimi cəzalandırılmalıdır**: “Ümid edirik ki, hücumun sülhə təsiri olacaq. 7 ildir ki, Suriyada vətəndaş müharibəsi gedir. Çox amansız müharibə gedir. Əvvəllər də kimyəvi silahların istifadə edildiyi sübut edilmişdi. Amma heç bir reaksiya olmamışdı. Bu, ilk deyil. Hərəkatı müsbət qarşılayırıq. Prezidentimizin də dediyi kimi, biz sadəcə söz deyil, əməl də görmək istəyirik. Beynəlxalq ictimaiyyət Əsəd rejiminin bu barbarlığına qarşı mübarizə aparmalıdır. Bu mübarizə rejimin artıq xalqına ziyan vura bilməyəcəyinə qədər davam etməlidir. Əsəd rejimi beynəlxalq aləmdə cəzalandırılmalıdır”.

*Bəs ABŞ-ın Suriyaya zərbələr endirməsindən sonra daha böyük müharibənin indi başlandığını söyləmək olarmı? Dünya düzəninə Trampın müharibəyə başlaması necə təsir edəcək?*

**Politoloq Şahin Cəfərli** ABŞ-ın Suriyada həyata keçirdiyi əməliyyatın müddəti və çərçivəsi məhdud oldu. Bu addım ilk növbədə Bəşər Əsəd rejiminin kimyəvi silahdan istifadə etməsi faktına cavab idi. Amma hadisənin çox ciddi siyasi nəticələri oldu və olacaq: “Obrazlı ifadə etsək, ABŞ-ın atdığı raketlər hərbi hədəflə yanaşı, bəzi siyasi hədəflərə də ”dəydi". Baş vermiş hadisə dünya siyasətində yeni səhifənin başlanması kimi qavranılmalıdır.

Əsas nəticə ondan ibarətdir ki, Barak Obamanın dövründə Yaxın Şərq regionunu prioritetlər sırasında arxa yerlərə atan və bununla da digər oyunçuların, xüsusən Rusiya və İranın bölgədə fəallaşaraq təşəbbüsü öz əlinə almasına şərait yaradan ABŞ qlobal super güc olduğunu bir daha ortaya qoydu. Vaşinqton nümayiş etdirdi ki, istədiyi an hərəkətə keçə bilər və onu əngəlləyə biləcək ikinci bir güc yoxdur. Bilirsiniz ki, Rusiya Suriyanın bütün hava məkanını özünün C-300 və C-400 zenit-raket kompleksləri ilə bağladığını və hər hansı qüvvənin Rusiyanın oradakı hərbi bazasına, eləcə də Suriya ordusunun bazalarına zərbə endirməsinə imkan verilməyəcəyini bəyan etmişdi. Lakin ABŞ hərbi gəmiləri Suriyaya 59 ədəd qanadlı raket atsalar da, Rusiyanın bu sistemləri işə düşmədi. Maraqlı fakt odur ki, hücumdan əvvəl ABŞ siyasi rəhbərliyi Rusiya siyasi rəhbərliyi ilə hər hansı məsləhətləşmə aparmayıb və məlumat verməyib. Yalnız texniki səviyyədə təmas olub və ABŞ-ın Qatardakı hərbi bazasından Rusiyanın Suriyadakı Hmeymim bazasına təxminən bu məzmunlu məlumat ötürülüb: “Bir azdan havada görəcəyiniz qanadlı raketlər bizimdir”. Bu fakt hər şeydən əvvəl Rusiyanın nüfuzuna və Putinin xarizmasına zərbədir. Rusiya prezidentinin ilkin reaksiyası da onun hadisəni qəzəblə qarşıladığını göstərir".

**Politoloq dedi ki, digər tərəfdən, hadisə onsuz da çox aşağı səviyyədə olan Rusiya-ABŞ münasibətlərinə daha bir zərbə vurdu. Rusiya Suriya səmasında insidentlərin qarşısının alınması barədə ABŞ-la imzaladığı memorandumdan çıxdı. Bu addım Suriyada ABŞ və Rusiya aviasiyasının toqquşması riskini artırır:** “İki ölkə Baş Qərargah rəislərinin Bakı görüşünün nəticələri də beləcə, boşa çıxmış oldu. Eyni zamanda, Rusiyanın Tramp administrasiyası ilə bağlı illüziyalarına da son qoyuldu. Moskva yavaş-yavaş anlamağa başlayır ki, ABŞ seçkilərində ”yanlış ata oynayıb" və bəlkə də Hillari Klintonun seçilməsi daha əlverişli olarmış. Çünki Klinton Obamanın siyasətini böyük ölçüdə davam etdirəcəkdi.

Başqa bir məqam ondan ibarətdir ki, Bəşər Əsəd son vaxtlar xeyli arxayınlaşmış və cəzasızlığına əmin olmuşdu. Raket zərbələri Əsədin özünəinamına da zərbə oldu, artıq o, hər an yeni bir hücum ola biləcəyi qorxusu ilə yaşayacaq".

**Ş.Cəfərlinin sözlərinə görə, raket zərbələri İrana da mesajdır:** “Mən əminəm ki, Tramp administrasiyası Suriya böhranı fonunda İranın regionda öz mövqelərini daha da gücləndirməsinə yol verməyəcək. Bu, İsrailin ABŞ-dan əsas tələbi və gözləntisidir. Məncə, ABŞ Suriyaya yeni zərbələr endirməyə qərar verərsə, bu dəfə İrana bağlı qüvvələri, xüsusən "Hizbullah"ı da “nəzərə alacaq”.

Başqa bir məqam son aylar qurulmuş Rusiya-İran-Türkiyə əməkdaşlıq mexanizminin və Astana formatının gələcəyi ilə bağlıdır. ABŞ gəmilərindən atılan raketlər bu formatın da “üstünə düşdü”. Rusiya ilə İran ABŞ-ın addımını kəskin şəkildə qınadığı halda, Türkiyə faktı alqışladı və daha sərt addımları zəruri saydığını bəyan etdi. Ankaranın bu cür mövqeyi, məncə, üçlü mexanizmin perspektivini sual altında qoyur. Onsuz da son vaxtlar Rusiya ilə Türkiyə arasında yeni problemlər yaranmışdı, Ankaranın son davranışı bu problemləri daha da dərinləşdirəcək".

**Ekspert bununla yanaşı qeyd etdi ki, ABŞ-ın Suriya məsələsindəki mövqeyi hələ dəqiqləşməyib. Trampın hələ də bu barədə aydın strategiyası yoxdur:** “Son vaxtlara qədər Trampın Suriya siyasətində əsas yeri İŞİD-lə mübarizə məsələsi tuturdu, bu məsələdə hətta Rusiya ilə əməkdaşlıq da istisna edilmirdi. Dövlət katibi Tillerson bəyan etmişdi ki, Əsədin hakimiyyətdən getməsi məsələsi ABŞ üçün prioritet deyil və buna Suriya xalqı özü qərar verməlidir. İndi bu istiqamətdə qeyri-müəyyənlik yaranıb və ABŞ-ın yeni siyasi kurs ortaya qoyub-qoymayacağı hələ ki məlum deyil”.

❑ **Etibar SEYİDAĞA**

**Son dövrlər dünyada terror hadisələri artıq sərhəd tanımır. Əgər bir zamanlar yalnız Yaxın Şərq ölkələrində terrorla bağlı xəbərlər alırdıqsa, artıq bu gün Avropanın mərkəzində belə teraktlar törədilir. Azərbaycanda da müstəqilliyin ilk illərində terror hadisələri törədilsə də, uzun müddətdir ki, ölkəmizdə sabitlik hökm sürür. Bu da bəllidir ki, heç bir ölkə terrordan sığortalanmayıb.**

# Terrordan sağ çıxmaq üçün nə etməli...

## Arzu Nağıyev: "İlk növbədə uçacağınız avia şirkəti diqqətlə seçin"

*Bəs insanlar terror baş verən zaman bundan necə qorunub, sağ qala bilərlər?*

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan **təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev** bildirib ki, dünyada yaranmış müasir beynəlxalq vəziyyət bir daha göstərir ki, xüsusilə də nəqliyyatda terrorizm məsələlərinə daha səriştəli və yüksək peşəkarlıq səviyyəsində diqqət yetirmək lazımdır:

"Terror, kütləvi psixologiyaya təsir edən amildir. Terror təşkilatları özlərinin və qurbanlarının tələfatından istifadə etməklə öz güclərini və mübarizəni sonadək aparacaqlarını nümayiş etdirməyə çalışırlar. Əvvəlcə başlayaq hava nəqliyyatından, yəni təyyarələrdən. Əfsuslar olsun ki, çox ciddi təhlükəsizlik tədbirlərinin görülməsinə baxmayaraq, terroristlər təyyarəyə daxil ola bilirlər. Qorunmaq üçün ilk növbədə uçacağınız avia şirkəti diqqətlə seçin. Ən doğru seçim ekonom klass ilə uçmaqdır, çünki bu, daha təhlükəsizdir. Çünki terroristlər adətən təyyarələrə hücumu biznes klass salonundan başlayırlar və oradakı sərnişinlərdən canlı sipər kimi istifadə edirlər. Çalışın ki, keçid tərəfdə deyil, pəncərə tərəfdə əyləşəsiniz. Çünki təyyarənin qaçırıldığı zaman və terroristlərin atəş açdığı vaxt digər kreslolar sizi müdafiə edə bilər. Statistika göstərir ki, ən çox atəşə məruz qalan da məhz keçid tərəfdəki kreslolardır. Çalışın birbaşa reyslərlə səyahət edəsiniz, tranzit uçuşlardan az istifadə edin. Tranzit uçuşlar zamanı təyyarənin salonunu tərk edin, çünki terroristlər bəzən təyyarəni bu cür tranzit dayanmalar zamanı ələ keçirirlər. Uçuş zamanı neytral geyinin, geyiminiz cəlbedici olmasın, hərbi rənglərdən və formalardan ibarət geyim geyinməyin. Uçuş zamanı siyasi mövzularda söhbətlər etməyin, pornoqrafik, siyasi və ya dini dərgilər oxumayın ki, başı pozuq terrorçuların konkret hədəfinə çevrilməyəsiniz. Üzərinizdə qızıl-zinət əşyaları gəzdirməyin. Spirtli içki qəbul edib təyyarə salonuna daxil olmayın. Təyyarənin terrorçular tərəfindən qaçırıldığı zaman ekspertlər passiv müqavimət taktikasına üstünlük verilməsini məsləhət görür; heç vaxt risk etməyin. Bu cür davranışınız adətən terrorçuları çıxılmaz vəziyyətə salır, nəticədə vaxt qazanmış olursunuz. Bu isə girov sərnişinlərin ancaq xeyrinədir".


Arzu Nağıyev

**Ekspert bildirib ki, terrorçuları zərərsizləşdirmək üçün əməliyyat başlanıbsa, onun davamiyyəti çox qısa olur**:

"Lakin bu zaman ilk növbədə yerə uzanmalı və əməliyyatın sonuna qədər tərpənməməlisiniz. Xüsusi təyinatlılar salona işıq-səsli qranatlar atır və heç kimin tərpənməməsini tələb edir. Bu zaman ayağa qalxan sərnişinlər potensial terrorçu kimi qəbul edilir və yerindəcə məhv edilir. Xüsusi təyinatlılara suallar verərək, onların diqqətini yayındırmaq olmaz, onların üstünə getmək, qucaqlamaq, təşəkkür etmək qəbuledilməzdir. Əməliyyat başa çatdıqdan sonra təyyarə salonunu tərk edin, bu zaman ilk növbədə uşaq, qadın, xəstə, yaralılara yol verin, itirilmiş əşyaların və geyimlərinizin axtarışına vaxt sərf etməyin. Yaddan çıxarmaq olmaz ki, təyyarə minalanmış ola bilər və hər an havaya sovrula bilər".

**Ekspert metroda terror baş verərsə nə etməli olduğumuz barəsində aşağıdakıları bildirib**:

Metro qatarında gedərkən isə çalışın vaqonun ortasında əyləşəsiniz. Statistika göstərir ki, qəzalar zamanı ən az xəsarət alan sərnişinlər məhz vaqonun ortasında dayanan sərnişinlərdir. Ətrafda sahibsiz qalmış bütün əşyalara diqqət yetirin. Sahibsiz əşyalar haqqında metropoliten əməkdaşlarına xəbər verin, özünüz heç nəyə toxunmayın. Gərək olmadıqda qatarda əyləşməyin, çünki partlayışlar zamanı ən çox yaralananlar məhz oturan sərnişinlər olur.

Bəzən olur ki, metroda gedərkən hər hansı səbəbdən qatar tuneldə dayanmalı olur. Adətən bu, qatarların cədvəlindəki gözləmələrdir. Lakin bəzən də hər hansı partlayışlar baş verir və ya elektrik naqilləri sıradan çıxır.

Vaqondan tez çıxmağa tələsməyin. Çünki sərnişinlərin vaqondan çıxıb tunel ilə hərəkət edə bilmələri üçün relslərdəki elektrik gərginliyi söndürülməlidir. Əgər tuneldə qatı tüstü varsa, ağız və burnunuzu dəsmal ilə bağlayıb vaqonun döşəməsinə uzanın ki, boğulmayasız. Vaqonun metal hissələrinə toxunmayın. Vaqon maşinistinin göstərişlərinə əməl etməyə çalışın, onun göstərişi olmadan vaqonu tərk etmək təhlükəlidir. İmkan daxilində xilasediciləri gözləyin. Təsadüfi deyil ki, Bakıda baş verən metro qəzalarının bəziləri məhz tuneldə baş verib. Adi bir nasazlıq ucbatından qatar tuneldə dayanmış və panikaya düşən sərnişinlər canını qurtarmaq üçün tunelə düşmüş, lakin çox məsafə qət edə bilməyib, boğulub əldən düşərək ölmüşlər".

**A.Nağıyev bildirib ki, Azərbaycanda istifadəyə verilmiş avtobuslarda heç bir təhlükəsizlik qaydaları mövcud deyildir, avtobusa daxil olan sərnişinlər yoxlanılmır, kiminsə terrorçu olması tam realdır**:

"Bu səbəbdən avtobusda gedərkən təhlükəsizliyin təmin olunması məhz sərnişinlərdən asılıdır. Avtobusa daxil olarkən ilk növbədə salona göz gəzdirin. Şübhəli əşyaların və ya şəxslərin olub-olmamasına əmin olun və ekstremal çıxış pəncərələrinin, yanğınsöndürən balonların harada yerləşdiyini *(əfsuslar olsun ki, ölkədəki avtobusların heç birində yanğın söndürən balonlar olmur)* gözdən keçirin. Yerüstü ictimai nəqliyyatda ən yaxşısı oturacaqlarda əyləşməkdir. Hər hansı partlayış zamanı və terrorçular tərəfindən avtobusun qaçırılması zamanı oturan sərnişinlər daha az xəsarət alırlar.

Geyiminiz və davranışınız təyyarədəki kimi olsun. Qızıl zinət əşyaları gəzdirməyin. Üzərinizdə mobil telefon olsa, yaxşı olar".

❑ **Əli RAİS**

# Əli İnsanovun yeni məhkəməsi başladı; sabiq nazir sərt açıqlamalar verdi

## "Ad çəksəm, məni sürüyə-sürüyə aparacaqlar..."

**Qaradağ rayon Məhkəməsində hakim Rəşad Mustafayevin sədrliyi ilə həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanovun məhkəməsi başlayıb. İlk iclasda qalmaqal yaşanıb. Musavat.com-un məhkəmə binası önündə olan müxbiri xəbər verib ki, məhkəmə nəzarətçiləri və mühafizə polisi jurnalistləri məhkəməyə buraxmayıblar. Həmçinin Əli İnsanovun qohumlarının bir çoxu da məhkəməyə buraxılmayıb. Məhkəmə nəzarətçiləri zalda 30-a yaxın qohum olduğunu desə də Əli İnsanovun yaxınları həmin şəxsləri tanımadıqlarını söyləyirlər.**

Məhkəmə zalından geri qayıdan Əli İnsanovun qohumları bildiriblər ki, sabiq nazir də jurnalistlərin məhkəməyə buraxılmasını istəyib. Ancaq buna məhəl qoyulmayıb.

Vəkillərdən aldığımız məlumata görə Əli İnsanov prosesdə çıxış edib. Sabiq nazir növbəti dəfə barəsində açılan cinayət işinin sifarişli olduğunu və saxlanıldığı həbsxanada heç bir ədliyyə işçisinə xəsarət yetirmədiyini deyib.

**İnsanovun vəkili Ağaveyis Şahverdi çıxışında bildirib ki, müvəkkili heç bir cinayət törətməyib:** "Əli İnsanova həbsdən çıxmasına 56 gün qalmış böhtan atılıb. Ona qarşı qanunsuz ittiham irəli sürülüb. Guya o, özündən fiziki baxımdan qat-qat güclü olan ədliyyə işçisinə güc tətbiq edib. Guya 10-15 nəfərin əhatəsində Penitensiar Xidmətin əməkdaşına xəsarət yetirib. Bu, şərləmə əməliyyatıdır. Bunların hamısı qanunsuzdur. Bizim vəsatətlərimiz təmin olunmalıdır. Bu iş məhkəmə baxışına verilə bilməz. Əli İnsanov həbsdə olduğu müddətdə heç bir qanunu pozmayıb, heç kimə xəsarət yetirməyib".

**Sabiq nazir Əli İnsanov vəkilinin vəsatətini müdafiə edib və çıxış üçün söz istəyib:** "Mən bu məhkəməyə gəlmək istəmirdim. Məni məcbur gətirdilər. Hesab edirəm ki, belə saxta ittihamlarla məhkəməyə gəlməyə ehtiyac belə, yoxdur. Bunların hamısı şər-böhtandır və bütün ittihamları rədd edirəm. Mənimlə düşmənçilik edənləri yaxşı tanıyıram. Qana çox susamısınız. Yetməzmi qanımı içdiyiniz? Bu dünyanın yolu uzundur".

**Sabiq nazirin bu sözlərinə hakim müdaxilə edib.**



**Əli İnsanov çıxışına davam edib və 1 il 6 ay MTN-nin təcridxanasında təkadamlıq kamerada, daha sonra Bayıl türməsində, 5 saylı korpusda 40 dərəcə istidə saxlanıldığını deyib:** "Amma o vaxt belə, qayda-qanunu pozmamışam. 13 saylı cəzaçəkmə müəssisəsində istilik sistemi olmayıb, üç dərəcə şaxtada qalmışam, amma yenə də müqavimət göstərməmişəm. Necə oldu ki, həbsdən çıxmağıma 56 gün qalmış müqavimət göstərdim?"

**Əli İnsanovun digər vəkil Toğrul Babayev** bildirib ki, müdafiə etdiyi şəxsin bir nəvəsinin on yaşı var, amma onun üzünü görməyib: "Bu, elə-belə insan deyil. Ümumdünya Səhiyyə Təşkilatının sədr müavini olub. Necə oldu ki, bu adam narkotikdən istifadə etdi?"

**Çıxışına müdaxilə edilən Əli İnsanov bildirib ki, ona imkan yaradılmasa, başqa tədbirlərə əl atacaq:** "Bu cinayət işində heç bir fakt, sübut-dəlil yoxdur. Bunlar mənim yatdığım yerdə yoxlama aparmayıblar, guya başqa bir kamerada yoxlama aparıb, orada döşəyin altından şüşə bankada dərman tapıblar. Penitensiar Xidmətin əməkdaşı dustaqlara verilən multivitaminləri şüşə bankada saxlayırdı. Mənim işimdə guya tapılan banka da həmin banka imiş. Vəkilim həmin gün saat 16.00-da mənimlə görüşdən çıxıb, ona heç nə deməyiblər. Amma sonradan məni rəisin otağına çağırıblar ki, protokola qol çək. Guya, mən həmin protokolu cırıb, ədliyyə işçisinə əl qaldırmışam. Mən həmin vaxt karsdan çıxmışdım, əynimdə köhnə paltarlar idi. Kars da çox köhnə, çirkli bir yerdir. Amma ekspertizaya mənim sonradan geyindiyim paltarları göndəriblər. Ekspertiza da rəy verib ki, guya uyğun gəlir".

**Məhkəmədən ədalətli qərar gözləmədiyini deyən Ə.İnsanov çıxışına davam edib:** "Mənə məlumat vermişdilər ki, həbsimi uzatmaq üçün üç plan olub. Birincisi, yeni işçi gətirib öyrətmişdilər ki, məni təxribata çəksin, mən də ona əl qaldırım. Amma elə oldu ki, o adam xəstələndi, onu mən müalicə elədim və sağaldı. Sonra nə qədər desələr də həmin işçi o plana razılaşmadı və mənim üzümə durmadı. İkinci plan müalicə etdiyim dustaqlarla bağlı idi. Guya mən onları səhv müalicə eləyib, ziyan vurmuşam. Amma müalicə elədiyim xəstələrin hamısı sağaldı, bu plan da baş tutmadı. Üçüncü plan isə bu idi".

**Sabiq səhiyyə naziri 100 il həbs alacağı təqdirdə də əfv istəməyəcəyini bəyan edib:** "Elə bilir ki, məni həbsdə çox saxlasalar, sınacam. Sınmağım mümkün deyil. Lap 100 il versələr də, mənim səbrim tükənən deyil. Elə başa düşməyin ki, mən geri çəkilirəm, ad çəkmirəm. Sadəcə, bir plan var. Mən burada kimlərinsə adını çəksəm, məni buradan sürüyə-sürüyə aparacaqlar. Mən bunu özümə rəva görmürəm, yəqin siz də rəva görməzsiz".

**Məhkəmədəki çıxışının sonunda Ə.İnsanov söyləyib:** "Mənim üzümə duran ədliyyə işçisini rəis təyin elədilər. Üzümə duran bir yazıq dustağı isə əfv sərəncamı ilə buraxıblar. Bu Anar Məmmədova da yəqin nəsə bir vəzifə verəcəklər".

**Məhkəmənin baxış iclası aprelin 12-nə təyin edilib.**

Qeyd edək ki, bir müddət əvvəl Ə.İnsanov barəsində Cinayət Məcəlləsinin 234.1-ci (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama), 315.2 (Hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmə, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı belə zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmə, bu maddədə göstərilən şəxslərə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) və 317-2.1-ci (Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi, eyni əməllər təkrar törədildikdə) maddələri üzrə cinayət işi başlanıb.

**Ə.İnsanov 2005-ci ilin oktyabr ayında həbs olunub. O, dövlət vəsaitlərinin mənimsənilməsində və dövlət aktivlərinin qanunsuz özəlləşdirilməsinin təşkilində ittiham edilib. 2007-ci ilin aprel ayında əmlakı müsadirə olunmaqla 11 il müddətinə azadlıqdan məhrum olunub. Ə.İnsanovun cəza müddəti ötən ilin oktyabr ayında başa çatırdı.**

❑ **İlkin MURADOV**



# Məşədinin 9 manatı

Zamin HACI
zaminhaci@gmail.com

**Səlib yürüşlərinə qarşı döyüşən müsəlmanların lideri Səlahəddin bir dəfə xristianların lideri, ingilis kralı Şir ürəkli Riçardın atı döyüşdə öldürüləndə ona 2 ərəb atı bağışlayıb. Münasibətləri bu dərəcədə dostcasına imiş. Adamın atını öldürürsən, sonra təzəsini bağışlayırsan ki, min gəl, yenə dalaşaq, maraqlı idi. Keçmiş savaşların əcəb tərzi, qaydaları varmış. Bu olub bizim eranın 12-ci əsrində.**

Hərçənd indi biz də erməni kilsəsinə qaz veririk, Ermənistan statistikasında isə onların bizə elektrik enerjisi verdiyi göstərilibmiş. Keçən il ermənilərdən aldığımız elektrikin dəyəri 2 milyon 263 min dollar olubmuş. Doğrudur, bizim Energetika Nazirliyi bunun yalan olduğunu deyir. Ancaq kimə inanasan? Bölgədə hamı yalan danışır.

Dünən bütün müsəlman Şərqinə sönməyən işıq salmış "Molla Nəsrəddin" jurnalımızın yaranmasının 111-ci ildönümü idi. Mirzə Cəlil xatirələrində yazır ki, "Molla Nəsrəddin" jurnalını çıxartmağa kağız almalıydıq, 9 manat pulumuz çatmırdı. Gedib kağız satana deyib nisyə versin, jurnal satılanda qaytarar, rədd cavabı alıb. Tiflisdə bir məşədi tanışları varmış, tacir imiş. Məşədidən borc istəyib, məşədi deyib oxu görüm hələ jurnalda nə yazmısınız. Mirzə Cəlil materiallardan bir az oxuyub, məlum məsələdir ki, məşədi deyib pulum yoxdur. Adam axı görür burda elə bunun özünü lağa qoyublar!

Dilxor qayıdıb "Qeyrət" mətbəəsinə. Ömər Faiq Nemanzadəyə deyib ki, alınmadı, məşədi pul vermir. Ömər bəy deyib qələt eləyir, dur gedək. Təzədən gəliblər məşədinin dükanına, Ömər bəy bunun üstünə qışqırıb ki, adə, sən təhər adamsan, sənin yanında bizim 9 manatlıq hörmətimiz yoxdurmu? Mirzə Cəlil yazır ki, məşədi kirimişcə daxılı çəkdi, 3 dənə üç manatlıq çıxardıb verdi, getdik kağız aldıq.

Əlacsızlıqdan az qala əmməlicə reketlik ediblər.

Eyni zamanda fikirləşirsən o vaxtın məşədiləri də indiki məşədilərdən yaxşı adam olublar. Təsəvvür elə, indi gedəsən hansısa məşədiyə, deyəsən, satirik jurnal buraxıram, 1 manat yardım elə. Adamı yortarlar. Ən yaxşı halda qapıdan qovarlar. Hələ bunlar məşədilər - şiələrdir, daha radikal islam təriqətlərinin davamçılarına üz tutsan nələr olar, ağıla gətirmək də çətindir.

Aşıq Ələsgərin məşhur şeirlərindən biri "Dağlar" qoşmasıdır. Bu günlərdə uşaq məktəbdən gəlib onu dodaqaltı oxuyurdu, qəfildən ağlıma gəldi ki, Aşıq Ələsgər bu şeiri indiki zəmanədə yaza bilməzdi. Aşıq əsasən 19-cu əsrdə, bir də 20-ci əsrin 26-cı ilinə qədər yaşamışdır. Bəs niyə o şeiri indi yaza bilməz, izah edim. Daha doğrusu, buyurun, özünüz şeirin birinci bəndini oxuyun:

Bahar fəsli, yaz ayları gələndə,
Süsənli, sünbüllü, lalalı dağlar!
Yoxsulu, ərbabı, şahı, gədanı
Tutmaz bir-birindən aralı dağlar!

Aşıq demək istəyir, dağlar üçün yoxsulla varlının fərqi yoxdur, hamısına qoynunda yer verir, gözəlliyini əsirgəmir. İndi isə gəlin görək Azərbaycanın dağlıq ərazilərində hansı gözəl hissələr uca millətimizin azad dolaşması üçün açıqdır? Çox az yerlər. Dağlarımızın gözəllikləri yapist məmurların villaları, qoruqları, ovlaqları, cürbəcür əyləncələri üçün hasarlanmışdır. Yoxsulla padşahı dağlarda elə qəşəng aralı tutublar ki!

Eynilə "Füzuli dərd əlindən dağa çıxdı, Dedilər bəxtəvər yaylağa çıxdı" söhbəti arxaikdir, köhnəlib, yeni dövrümüzlə səsləşmir - lotu tənqidçilər demişkən. İndi dərdi çox olanlar dağa çıxmırlar, İranın-filanın xəstəxanalarına qaçırlar.

**Bəşəriyyətin, o cümlədən bizim tərs-təkamülümüzün, reqressiya eləməyimizin səbəbi nədir? Könül istərdi bunu passionarlıq nəzəriyyəsi ilə, tarixi inkişaf yolunun qalxma-enmələri ilə izah eləsin və ümid versin ki, bu enişin qalxışı da olacaqdır. Ancaq ömür razılaşmaq istəmir, "niyə mən", "nədən bizim bəxtimizə bu dövr düşdü" suallarını durmadan verir.**

---

**Bu ilin fevralın əvvəllərində 1960-cı il təvəllüdlü, özünü talış kimi təqdim edən və guya etnik mənsubiyyətinə görə təqiblərlə üzləşmiş Mirzəyev Şahin Sahil oğlu ad-soyadlı birisi Ermənistana gələrək, siyasi sığınacaq aldı. Dərhal da erməni xüsusi xidmət orqanlarının təbliğat ruporları "zərərçəkən"in müdafiəsinə qalxdı. Az qala sərhəddəcə onu özü kimi ekspertlərlə birgə Xankəndinin blokadasının yarılması ilə bağlı müşavirədə iştirak üçün dəvət olundu.**

# Nəsli-kökünü unutmuş satqın Şahin Mirzəyev necə "patriot" oldu?

## Azərbaycandan olan dələduza Ermənistan hakimiyyətinin göstərdiyi qayğı və diqqətin sirri barədə bir daha



Təəccüblü deyil, amma niyə Xankəndi indiyədək blokadadadır, əgər gördüyümüz kimi, Ermənistan Milli Təhlükəsizlik Xidməti bu işdə o cür ekspertlərlə əməliyyat keçirirsə. Ancaq hər şey barədə ardıcıllıqla.

Ondan başlayaq ki, Şahin Mirzəyev əslən Lerikin talışlar yaşamayan Kəlvəz kəndindəndir. Başabəla patriotun öz ailəsində də heç vaxt talışca danışmayıblar. Mirzəyevlər ailəsinin üzvləri hətta heç Lerikin köklü sakinləri də deyillər. Onların əsli Qərbi Azərbaycana gedib çıxır. Oradan onların əcdadları İrana, İrandan da Lerikə keçiblər. Bu fakt Azərbaycanın talış ictimaiyyətinə yaxşı məlumdur.

Mirzəyevin Rusiyada qətlə görə həbs, çoxarvadlılıq, başı ayılmayan sərxoşluq və Azərbaycanın ictimai-siyasi təşkilatlarında dələduzluqla üzvlüyü (məsələn, onun Müsavat Partiyasında üzvlüyü və oradan təxribatçı hərəkətinə görə qovulması nəyə desən dəyər) kimi "zəngin" həyat yolu nəzərə alınarsa, onun hərəkətinin motivi aydın olar.

Əlbəttə ki, Şahinin həyatına təhlükə olduğunu istisna eləmək olmaz və o da məhz Ermənistana qaça bilərdi. Səbəbləri isə daha çox onun 3 arvadında axtarmaq lazımdır: birinci arvadı doğma Lerikdən olan xalası qızı idi, ikinci həyat yoldaşı uzun əlləri Rusiyanın hər yerinə çatan cəsur Qafqaz xalqlarından birinin nəslinə mənsub idi, üçüncüsü isə sadəcə, Bakıdakı mənzilində sərxoş Mirzəyevi öz himayəsinə götürən bir qadın idi.

Ancaq Mrzəyevin içində müntəzəm yuva salmış "yaşıl ilan" da elə hər şeyi korladı. Məsələ ondadır ki, bədnam "azadlıq hərəkatının üzvü" tərəfindən döyülən üçüncü arvad bu barədə dəfələrlə qonşularla şikayət eləmişdi. Daha sonra qadın belə görünür, "Döyürsə, demək, səni sevir" deyimini nəzərə alıb zövqə girdi və onunla dünyanın o başına, yəni Ermənistana belə şütüdü.

İş də ondadır ki, məhz bugünkü Ermənistan milli ideyaların tam fiaskosu və türkofobiya təbliğatı fonunda müxtəlif sort dələduzlar üçün sığınacağa çevrilib. Burada onlar, özlərinin fikrincə, hətta qoca vaxtında da simurq quşu tək "cavanlığın" bütün çirklərindən yuyunmaq və cəsur qəhrəmanlar kimi küldən təzədən dirilmək şansı qazanırlar.

Özü kimi dələduz axtarıb tapan - hansını ki, artıq talış fəalı kimi təqdim eləmək olar - erməni əməliyyat işçisinin də əməyini dəyərləndirmək lazımdır. Şükür ki, şahid də həmişə əl altındadır - Sankt-Peterburqdan yorulmadan xəbərlər verən bədnam Zabil Məhərrəmov kimi. Hərçənd, ondan soruşmaq olar ki, hansı haqla Şahin Mirzəyev talış olmaya-olmaya və bunu da hamı bilə-bilə, talış xalqının adından çıxış edir?

Erməni KİV-lərin yaydığı informasiyalara əsasən, Mirzəyevi İrəvandakı mənzildə yerləşdiriblər. Halbuki, Ermənistan rayonlarından olan gənc ermənilər orduda qulluq edib gəldikdən, bəzən işğal altındakı Azərbaycan ərazilərində güllələrdən möcüzə sayəsində sağ qurtulandan sonra paytaxtda iş və ev tapa bilmirlər, erməni Qarabağ müharibəsinin veteranları isə ya təqib edilir, ya da həbsxanada otururlar. Azərbaycandan olan dələduza Ermənistan hakimiyyətinin göstərdiyi qayğı və diqqət özlüyündə çox şey deyir.

Bəlkə də davamlı şəkildə öz çıxışları ilə talışların adından Azərbaycanın ümummilli problemlərindən, o sırada Qarabağ müharibəsindən yaxasını kənara çəkən və bütün azərbaycanlıları təhqir edən bu zata diqqət ayırmağa dəyməzdi. Axı, elə təkcə Lerik rayonundan 137 nəfər Qarabağda şəhid olub. Təkcə Lerik Azərbaycana 5 Milli Qəhrəman verib.

Ermənistan Azərbaycanda millətlərarası barışı pozmaq üçün on illərdir informasiya müharibəsi aparır. Lakin belə israrlı cəhdlərə və xarici qüvvələrin dəstəyinə rəğmən, yalnızca "öz nəsli-kökünü unutmuş Şahini" işıq üzünə çıxara biliblər. Bu da bir daha sübut edir ki, talışları öz Vətənləri ilə - Azərbaycanla savaşdırmaq istəyi uğursuzluğa məhkumdur.

Erməni başabəla strateqlərinin uğursuzluğunun bir səbəbi - onların dünya görüşünün məhdudluğundadır: monoetnik mühitdə böyüyən adamlar müxtəlif millətlərin və xalqların nümayəndələrinin konfliktsiz, dinc yanaşı yaşamasını sadəcə olaraq, dərk eləmək iqtidarında deyillər. O üzdən də özlərinin dar düşüncəsi əsasında öyrəncəli olduqları şeyləri kopyalayırlar - həm də elə bir vaxtda ki, Ermənistanın özündə kilsə səviyyəsində yezdi kürdləri ilə nikahlar qadağan edilib. Hakimiyyət tərəfindən onların öz ənənəvi maldarlıqla məşğul olmasına hər cür əngəllər yaradılır, parlamentin deputatları bu xalqı açıq şəkildə təhqir eləməkdən çəkinmirlər, Avropa strukturları isə Ermənistan hökumətindən mütəmadi şəkildə situasiyanı düzəltməyi tələb edir. Hünərli xüsusi xidmət orqanları da axtarırlar, tapmayanda isə Azərbaycanda milli azlıqların haqlarının pozulması barədə uydurmalar fikirləşirlər.

**Bütün bunlara rəğmən, Azərbaycanın cənub, mərkəzi və şimal rayonlardan müxtəlif millətlərin mənsubları olan sıravi əsgər və zabitlər cəbhə xəttində hərbi xidmətlərini davam edirlər - hansı oğullar ki, düşmənin yaxınlaşdığını görən kimi anındaca tətiyə basmağa və Vətənin müdafiəsi naminə özlərini qurban verməyə hazırdırlar.**

❑ Musavat.com

# ABŞ erməni lobbisinin “BoraJet” əməliyyatı

**2017**

**-ci ilin yanvarında Türkiyə özəl hava daşımaçılığı şirkəti olan “BoraJet”in satışı xəbəri Türkiyə gündəmini zəbt etdi. Gözlənilmədən türk əsilli, ABŞ-ın iş adamı Yalçın Ayaslının yüksəlişdə olan şirkətinin bütün hissələrini 250 milyon dollara SBK Holdinqə satması xeyli suallar yaradırdı.**




# Türkiyənin uçaq şirkəti ABŞ ermənilərinin əlinə keçdi-məxfi məlumatlar

## Əsl sahibi erməni Levon Termendzyan olan SBK Holdinq “BoraJet”i alıb, Ermənistanla hava daşımaçılığını genişləndirməyi nəzərdə tutur; bunun üçün artıq ciddi səviyyədə danışıqlara da başlanıb; Yalçın Ayaslı erməni lobbisinin hədəfinə niyə gəldi...

*Türkiyə mediası yazır ki, 2016-cı ilin iyul ayına qədər “BoraJet” əvvəldə 165 milyon lirə həcmində olan sərmayəsini 234 milyon lirəyə qədər artıra bilib. 2015-ci ildə isə bu rəqəm 150 milyon olub. Rəqəmlərdən göründüyü kimi, 2015-ci ildə sərmayəsini cəmi 10 faiz artıran şirkət, 2016-cı ildə 42 faiz böyüyüb. Maraqlıdır, bütün hissələrin sahibi olan Yalçın Ayaslı satışa qərar vermişdisə, şirkətə bu qədər sərmayə yatırılmasının səbəbi nə idi? Başqa bir sual - belə ciddi kapital qoyulan və yüksəlişdə olan şirkət niyə qəfil satıldı?*

“Yeni Müsavat”ın müxbirinin Amerika Birləşmiş Ştatlarındakı qaynaqlardan əldə etdiyi bilgiyə görə, satışa səbəb ABŞ-dakı erməni lobbisinin çoxdan bəri hədəf seçdiyi “BoraJet”-in artıq keçmiş sahibi Yalçın Ayaslıya qarşı “genişmiqyaslı hücumu” olub. Belə bir meydanı erməni lobbisinə ötən ilin 15 iyulundakı çevriliş cəhdi yaradıb. Yalçın Ayaslının adını FETÖ araşdırmasına qarışdırmağı bacaran erməni lobbisi onun şirkətini əsl sahibi erməni Levon Termendzyan olan SBK Holdinqə satılmasına nail olub.

Türkiyədə gündəmə gələn bu iddia Yalçın Ayaslını yaxından tanıyanları şoka salıb. Çünki Türkiyənin siyasət və elm çevrələrində böyük nüfuzu olan Yalçın Ayaslının dönməz kamalist olduğunu bilməyən yoxdur...

15 iyul çevriliş cəhdindən sonra hər köşədə FETÖ-çu axtarmaqla hakimiyyətə yarınmaq istəyən bir sıra qəzetlər Birləşmiş Ştatlardakı erməni dairələrin diqqətini çəkib. Həmin media quruluşları ilə işbirliyinə girənlər Ayaslı haqqında qara piar kampaniyası başladıb. Onun uzun illərdir Gülən camaatı ilə yaxınlığı haqqına heç bir sübutu olmayan iddialar irəli sürülüb, şirkətini Gülənin parası ilə böyütdüyü haqqında miflər uydurulub. Şirkət əl dəyişdirikdən sonra Yalçın Ayaslını qaralayan yazıların ABŞ-dakı erməni mərkəzlərdən idarə olunduğu təsdiqini tapıb. “BoraJet” sahibi erməni olan SBK Holdinqə satılandan sonra aylarla mövzunu gündəmindən düşməyə qoymayan qəzetlər qəfildən susub.

**SBK Holdinq isə durumdan məmnundur.** “BoraJet”i alandan sonra holdinq yönətiminin yaydığı açıqlamada bildirilir ki, məqsəd İstanbuldakı üçüncü hava limanından indiyə qədər az işlənən marşrutlar üzrə reyslər açmadıq. ABŞ-dakı qaynaqlar bildirir ki, holdinq “az işlənən marşrutlar” dedikdə məhz Ermənistanla hava daşımaçılığını genişləndirməyi nəzərdə tutur, bunun üçün artıq ciddi səviyyədə danışıqlara da başlanıb.

Son dönəmlərə qədər SBK Holdinqin saytında şirkət sahibi kimi göstərilən Levon Termendzyanın adı “BoraJet”in alınmasından sonra “qeybə çəkilib”. ABŞ-dakı qaynaqlar onu da təsdiq edir ki, bu şəxs qalmaqallı naturasıyla ünlüdür. L.Termendzyan adı bir neçə dəfə ştatın kriminal olaylarında da hallanıb.

İndi rəsmi sənədlərə görə SDK Holdinqin sahibi Sezgin Baran Korkmaz adlı ABŞ-lı iş adamıdır. Korkmaz Karslıdır. Erməni əsilli olması haqqında iddialar olsa da, bunları təsdiq etmək mümkün olmayıb. Gələn məlumatlarda vurğulanır ki, Baran Korkmaz erməni yox, kürd əsillidir. Qarsda məktəblər və yataqxanalar tikməsilə məşhurdur. Türkiyənin bir neçə naziri ilə sıcaq ilişkilər quran holdinqin bir müddət öncə dərman sektoruna da girdiyi, “Biofarma İlaç və Münir Şahin İlaç” şirkətlərini aldığı haqqında sənədlər var.

Erməni maliyyəsi ilə qurulan SBK Holdinq mərkəzi ofisi ABŞ-da olan “Washakie Renewable Energy”, “Noil Energy Group” və bu qrupların Türkiyədəki yönəticisi olaraq da fəaliyyət göstərir. Əldə etdiyimiz bilgiyə görə, şirkətin hədəfləri sırasında Türkiyə üzərindən SOCAR-la işbirliyi qurmaq da var.

Qayıdaq “BoraJet”-in satılmasına. 14 uçağa sahib və böyüklüyünə görə Türkiyənin üçüncü hava daşımaçılığı şirkəti olan “BoraJet”lə bağlı diqqət çəkən bir xəbər də 2016-cı ildə “Hürriyət” qəzetində yayılıb. Prezident Rəcəb Tayyib Ərdoğanın BMT TŞ-nın toplantısına qatılmaq üçün gerçəkləşdirdiyi ABŞ səfəri haqqındakı yazıda vurğulanır ki, “Borajet”in satılması ideyası həmin dönəmdə gündəmə gəlib...

Türkiyə mediasında Yalçın Ayaslının FETÖ-çu olması haqqında saysız uydurmalarla yetərlənməyən erməni lobbisi iş adamının yaxın çevrəsinə, “BoraJet”in İdarə Heyətinə də yol tapa bilib... Sonucda Ayaslı şirkəti satmağa məcbur olub.

Ayaslının Türkiyədəki əmlaklarını tamamilə ələ keçirmək istəyən erməni lobbisi bununla da yetərlənməyib. “Alınan” şəxslərin şirkətin alqı-satqı zamanı bilərəkdən yol verdikləri səhlənkarlığa görə Ayaslının İstanbulun göbəyində, Topqapı Sarayının yaxınlığındakı Nuri-Osmaniyyədə dəyəri 25-30 milyon dollar olan mülkü də məhkəmə predmetinə çevrilib. Məsələ burasındadır ki, 250 milyon dollar qarşılığında “BoraJet” şirkətin bütün sənədlərinin yeni sahibinə veriləcəyinə təminat verib. Girov kimi də sözügədən mülkü göstərib. İndi SBK Holdinq ələ aldığı şəxslər vasitəsilə “gizlədilən sənədləri” ortaya çıxararaq Yalçın Ayaslının satış anlaşmasını pozduğunu iddia edir.

ABŞ-dakı qaynaqların fikrincə, bütün bu işlərin arxasında ABŞ-dakı erməni lobbisi və bu lobbinin nəhəng maliyyəsi dayanır. Məqsəd Ermənistanla Türkiyə arasında hava nəqliyyatının bərpası üçün altyapını hazırlamaqdır.

Bəllidir ki, erməni lobbisi son dönəmlərdə müşahidə olunan Kreml-Ankara yaxınlaşmasından Ermənistan-Türkiyə münasibətlərinin istiləşməsi üçün istifadə etməyə çalışır.

Bu münasibətlərin bərpası üçün beynəlxalq müstəvidə yaranan heç bir fürsəti qaçırmayan erməni lobbisinin məhz Yalçın Ayaslının şirkətini hədəf seçməsi də təsadüf deyil. Bununla ermənilər Osmanlı dövlətinə, Türkiyə Cümhuriyyətinə qarşı yalanların ifşa edilməsində müstəsna rolu olan Yalçın Ayaslıdan intiqam almaq fikrindədirlər.

ABŞ-dakı qaynaqlar onu da iddia edir ki, təxminən bir ay öncə baş tutan Putin-Ərdoğan görüşündə də bu məsələ masaya yatırılıb. Rusiya prezidenti Ermənistanla Türkiyə arasında münasibətlərin genişlənməsinin regional siyasətə müsbət təsir edəcəyini söyləyib.

**Yalçın Ayaslı haqqında bir qədər ətraflı:** 1946-cı ildə Ankarada doğulub. Orta Doğu Texniki Universitetinin Elektrik Mühəndisliyi fakültəsini bitirib. Təhsilini 1973-cü ildə Bostonda, Massaçusets Texnoloji Universitetində davam etdirib, doktor elmi dərəcəsi alıb. Lazer şüaları üzrə mütəxəssis olan Y.Ayaslının 15 ixtirası var. 20 illik elmi fəaliyyəti nəticəsində əldə etdiyi ixtiralarını ABŞ Müdafiə Nazirliyinə və tibb texnologiyaları istehsal edən şirkətlərə satan Yalçın Ayaslı 2,45 milyard dollar gəlir əldə edərək, həmin vəsaitin bir qismi ilə “BoraJet”i qurub. Bununla yanaşı, alim Boston, Vaşinqton və İstanbulda ofisləri olan ABŞ Türk Koalisiyası və Türk Kültür Fondu adlı iki təşkilata rəhbərlik edir. Hər iki mərkəz türk mədəniyyətinin, musiqisinin, mətbəxinin dünyaya tanıdılması ilə məşğuldur. Alim ortaçağa aid kilim və xalıların bərpası üçün İstanbulda çağdaş texnologiyalarla təchiz olunmuş restavrasiya mərkəzinin də sahibidir. Təhsil aldığı və bir neçə il müəllim olaraq çalışdığı ÖDTÜ-də Ayaslı Araşdırma Mərkəzi quram alim gənc istedadların Türkiyədə və xaricdəki təhsilinə dəstək verir. “BoraJet”lə yanaşı Yalçın Ayaslı qida sektorunda aid Armaggan və Nar şirkətlərinin də sahibidir.

Onun geniş ictimai fəaliyyətinin əsasında isə Atatürk ideyalarına sədaqəti və Türkiyə Cümhuriyyətinin maraqlarına xidmət dayanır. ABŞ-dakı erməni lobbisinin hədəfinə gəlməsinin səbəbi də Ayaslının erməni iddialarının yalanlamasına ciddi sərmayə yatırmasıdır.

Yalçın Ayaslını yaxından tanıyan Türkiyənin ünlü diplomatı, Yaponiya və ABŞ böyükelçisi olmuş, XİN müstəşarı, 2 dönəm Türkiyə Böyük Millət Məclisinin üzvü Şükrü Elekdağ “Yeni Müsavat”a açıqlamasında yerli qəzetlərin Yalçın Ayaslı haqqında yazdıqlarının gerçəklə heç bir bağlantısı olmadığını deyir: “Yalçın Ayaslı yaxından tanıdığım, saygı duyduğum şəxsdir. Millətini, vətənini sevən dəyərli şəxsiyyətdir. Heç bir zaman dindar çevrələrlə yaxınlığı olmayıb, dünyəvi həyat tərzi keçirib. Yalçın Ayaslı Türkiyə Cümhuriyyətinin mənfəəti üçün böyük işlər görüb. Uzun illər ermənilərin soyqırım yalanlarının qarşısını almaq üçün Türkiyədə, ABŞ-da, Fransada böyük işlər görüb - beynəlxalq məhkəməyə çıxan işlərin maliyyə tərəfini həll edib, saxta soyqırım iddialarına elmi cavablar verilməsi üçün beynəlxalq konfranslar təşkil edib, müxtəlif dillərdə kitablar nəşr etdirib. Heç bir qarşılıq gözləmədən milyonlarla vəsaitini Vətəni üçün xərcləyən, Türkiyə dövlətinə xidmət edən dəyərli bir şəxs haqqında qaralama kampaniyasına çox üzülürəm. Onun heç bir zaman Fətullah Gülənə münasibəti müsbət olmayıb. Tam əksinə, onu Türkiyə dövləti üçün təhlükə olaraq görüb və bu fikirləri açıq şəkildə dilə gətirib. Türkiyə dövlətinin təməl ideyalarına hər zaman sahib çıxan və bütün ömrünü ölkəsinin yüksəlişi üçün çalışan belə insanlarımızı qorumalıyıq. İnanıram ki, onun qurduğu "BoraJet" şirkətinin hansı saxtakarlıqla ermənilərin əlinə keçməsi haqqında informasiyalar qısa zamanda gün üzünə çıxacaq. O zaman bu insanın hansı məqsədlər üçün hədəf seçildiyini hər kəs görəcək. Bu məsələdə mən sonadək saygıdəyər Yalçın Ayaslının yanındayam".

**Qarabağ məsələsinə xüsusi həssaslıq və prinsipiallıqla yanaşan Şükrü Elekdağ ABŞ-ın erməni lobbisinin bununla Azərbaycanı da hədəf aldığını düşünür:** “Türkiyə dövlətinin rəhbəri Rəcəb Tayyib Ərdoğan dəfələrlə bildirib ki, Qarabağ problemi çözülmədən Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasından söhbət gedə bilməz. Türkiyənin həssas bir dönəmdən keçdiyi bugünkü günlərdə erməni lobbisinin Ermənistanı Türkiyə üzərindən dünyaya açmaq cəhdləri həm də Azərbaycan-Türkiyə münasibətlərində gərginlik yaratmağı hədəfləyir. Ümid edirəm, hər iki dövlətin liderləri bu saxtakar oyunu pozmaq üçün iradə göstərəcəklər. Əlimizdə SBK Holdinqin erməni sərmayəsi ilə işləməsi haqqında ciddi sənədlər var. Belə bir şirkətin Türkiyədə mülki aviasiya sahəsində fəaliyyəti dövlətimizin və vətəndaşlarımızın təhlükəsizliyi üçün ciddi problemdir. Hər iki dövlət rəhbərini ermənilərin bu oyununu pozmağa çağırıram”.

**Mövzunu davam etdirəcəyik.**

**❑ Aygün MURADXANLI**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 72 (6686) 8 aprel 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Düşmənin unutduğu aprel dərsi - onu bir də keçməli olacaq

## Hərbi əməliyyatlar bu dəfə daha geniş miqyasda təkrarlanacaq, əgər...; **erməni general:** "Həqiqətən də Azərbaycanın silahları bizdən çoxdur"; **azərbaycanlı politoloq:** "Bakı Qarabağ problemini güc yolu ilə həll etmək zorunda qala bilər..."

**Ermənistandakı 2 aprel parlament seçkilərindən sonra təmas xətti önündəki kəndlərimizin atəşə tutulması intensivləşib. O sırada Tərtərin Qapanlı kəndinin hədəf seçilməsi xüsusi diqqət çəkir. Belə görünür, kriminal Sərkisyan rejimi indi də total seçki saxtakarlıqlarından diqqəti yayındırmaq üçün bu yola əl atıb. Amma əbəs yerə. Azərbaycan Ordusu düşmən tərəfin hərbi xarakterli istənilən təxribatına artıqlaması ilə cavab verməyə hazırdır və verir də. Hərbi ekspertlər də bunu dönə-dönə qeyd edirlər.**




"Azərbaycan Ordusunun yaşayış məntəqəmizi atəşə tutan düşmənə cavabı çox kəskin olacaq". Bunu **ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov** cəbhə xəttindəki son durumu şərh edərkən deyib. "İndi təmas xəttinə lap yaxın kəndlərdə atəşkəsi pozurlar ki, yerli əhaliyə təsir etsinlər, onda ruh düşkünlüyü yaratsınlar. Lakin Qapanlı kəndinin sakinləri heç vaxt öz doğma yurdlarını tərk etməyəcəklər. Ermənilər keçən ilin aprelində də ön xətdə gərginlik yaratmağa, təmas xəttinə yaxın yaşayış məntəqələrini atəşə tutmağa başlamışdılar. Amma heç bir nəticə əldə edə bilmədilər, üstəlik layiqli cavab aldılar. Düşmən yenə də istəyinə nail ola bilməyəcək. Digər tərəfdən, Ermənistan rəhbərliyi bununla ölkə əhalisini guya Azərbaycanın atəşkəsi pozduğuna inandırmağa, ön xətdə gərginliyə nail olmağa çalışaraq, cəmiyyətdə narazılığı yumşaltmağa cəhd göstərir. Lakin Azərbaycan ordusu düşmənin öz istəyinə çatmasına imkan verməyəcək", - deyə o qeyd edib.

***

Ötən ilin ilk aprel günlərində Azərbaycan əsgəri düşmənə doğrudan da yaxşı dərs verib. Bunu indi - 4 günlük savaşdan 1 il sonra xüsusən də hadisələrin episentrində olmuş erməni hərbi həkimlər də təsdiqləyir. Belə ki, erməni KİV-ləri bu döyüşlərin birinci ildönümündə hospitalın həkimlərini danışdırıb. Onların açıqladığı rəqəmlər və təsvir etdiyi situasiya Ermənistan rəhbərliyinin bəyanatları ilə üst-üstə düşmür (Virtualaz.org ).

**Erməni həkimlər ötən ilin aprel döyüşləri zamanı təkcə Ağdərə hospitalının 150-dən çox yaralı əsgəri qəbul etdiyini deyirlər.** Hospitalın rəisi Xoren Azaryan deyir ki, döyüşlər başlayanda o, iş dalınca İrəvana gedibmiş: "Mənim iki müavinim atəş səslərindən başa düşüb ki, bu adi atışma deyil, döyüş əməliyyatları gedir. Və onlar bütün tibb personalını səhərə yaxın saat 4-də toplayıb, binanın üstündən bayrağı götürüb, işıqların köməyi ilə maskalanma həyata keçirib" - Azaryan danışır.

**Azaryan özü İrəvandan aprelin 2-də günorta qayıdıb.** Həmin vaxt hospitala ardı-arası kəsilmədən yaralı əsgərləri daşıyırdılar. Bunlar erməni ordusunun Talış kəndi istiqamətində və Seysulan istiqamətində gedən döyüşlərdə yaralanan əsgərləri idi. Xoren Azaryan dörd gün ərzində hospitalın 150-dən çox yaralı əsgər qəbul etdiyini deyib. Onların bir çoxunu xilas etmək mümkün olmayıb. Yaralıların bir çoxunun vəziyyəti ağır olduğu üçün İrəvandan və Xankəndindən təcili həkim briqadaları gəlib. Ən çox yaralı axını aprelin 3-də baş verib (Həmin gün Azərbaycan ordusu ermənilərin Mataqis polkunu sərrast artilleriya zərbələri ilə vurmuşdu).

**Hərbi həkim deyir ki, onlar ön xəttə yaralı dalınca gedəndə Azərbaycan ordusunun pilotsuz zərbə təyyarəsi Mataqisdə hərbi sursat anbarını bombaladı.** Daha bir pilotsuz aparat isə Ağdərə hospitalının üzərində fırlanırdı. Cərrah David Marqaryan isə danışır ki, həmin günlər Mataqis-Ağdərə yolu daim atəş altında idi. Erməni hərbi həkimlərin dediyinə görə, onların yaddaşında ən ağır izləri Azərbaycanın "Harop" pilotsuz döyüş aparatından endirdiyi zərbə buraxıb. "Çoxları elə yerindəcə öldü. Bir neçəsini hospitala çatdıra bildik, ancaq onlardan çox az adamı xilas etmək mümkün oldu" - cərrah danışır.

**Hospitalın qəbul şöbəsinin rəisi, mayor Gevond Tadevosyan da Azərbaycanın "Harop" pilotsuz döyüş aparatının endirdiyi zərbəni dəhşətlə xatırlayır.** "Sisyandan olan könüllüləri ön xəttə aparan avtobusun dronla vurulması həmin günlərdən yaddaşımda qalan ən dəhşətli xatirədir. Bilmirəm bu nə silah idi, insanlar diri-diri yanmışdı. Bu, çox dəhşətli idi. Bizə onlardan üçünü, yaxud dördünü gətirmişdilər. Biz yardım göstərdik, ancaq hamısı intoksikasiyadan öldü", - Tadevosyan bildirib.

***

"Ötən ilin aprel ayındakı dördgünlük müharibə zamanı insan və ərazi itkilərimiz olub". Bu etirafı isə erməni mətbuatına müsahibəsində Qarabağ separatçılarından biri, qondarma "DQR" "parlamentinin" üzvü, general Vitali Balasanyan deyib (asvision.az).

"Biz imzalanmış sənədlərə, digər ölkələrin prezidentlərinin və həmsədrlərin bəyanatlarına sadəlövhcəsinə inanırıq. Ötən ilin aprelində məhz bu baş verdi. Həqiqətən də Azərbaycanın silahı bizdən çoxdur. Nə qədər çətin olsa da, bunu deməyə məcburam. Aprel hadisələrindəki itkilərimiz bütün ermənilərə mesaj oldu".

**Aprel döyüşləri zamanı yanacaq və hərbçilər arasında rabitə sistemi ilə bağlı problemə gəlincə, Vitali Balasanyan bildirib:** "Məsələ ondadır ki, rabitə düzgün təşkil olunmamışdı. Yəni problemlər, bizim qeyri-mütəşəkkilliyimizdən irəli gəlib. Nəticədə qarşı tərəf bundan çox yaxşı formada yararlandı. Yanacaqla yaranan problemə gəlincə, bu, laboratoriyanın işidir".

***

Qeyd edək ki, Azərbaycanın 4 günlük müharibə zamanı İsrail istehsallı kamikadze-dronlardan istifadəsi erməni tərəfdə gerçəkdən, panika yaratmaqla yanaşı, xarici hərbi ekspertlərin diqqətini çəkmiş, bu fakt birmənalı şəkildə Azərbaycan Silahlı Qüvvələrinin işğalçı ordu üzərində üstünlüyünün təsdiqi kimi qiymətləndirilmişdi.

Bu hərbi üstünlük ötən ilin aprel əməliyyatlarından sonra Rusiyanın Ermənistana müəyyən silahlar verməsinə rəğmən, indi də da saxlanılır. Prezident Serj Sərkisyan bu yaxınlarda özü də etiraf elədi ki, silahlanma yarışında Ermənistan Azərbaycanla yarışmaq imkanında deyil. Bu da məntiqlidir, çünki Ermənistanın böhran vəziyyətində olan iqtisadiyyatı və kasad maliyyə resursları buna imkan vermir. Rusiya da sonsuzadək İrəvana havayı və güzəştli qiymətə silah-sursat vermək niyyətində deyil.

Odur ki, təcavüzkar ölkə nə qədər gec deyil, aprel dərsindən düzgün nəticə çıxarmalıdır. Əks halda həmin dərsi o, bir daha keçməli olacaq. Ancaq bu dəfə qat-qat sərt şəkildə. Bu qənaəti Ermənistanda Sərkisyan rejiminin Moskvanın dəstəyi ilə öz hakimiyyətini möhkəmlətməsi dəyişməyəcək.

"Ermənistanda Rusiyayönlü rəhbərlərin hakimiyyətə gətirilməsi bir çox mətləblərdən xəbər verir. Həmin dəstənin tərkibinə baxsaq, görərik ki, Qarabağ klanının rəhbəri olan separatçılar, Moskvanın biznes ortağı Çarukyan və millətçi Daşnaksütyun Partiyasının birləşməsi müharibə partiyası anlamına gəlir". Bunu Axar.az-a açıqlamasında **politoloq Arzu Nağıyev** deyib. Ekspertin sözlərinə görə, bu üç partiyanın birləşməsi Dağlıq Qarabağda status-kvonun saxlanılması deməkdir, eyni zamanda, Rusiyanın vassalına çevrilmək üçün yeni bir məkandır.

"Parlamentdə fraksiyalar yaradılandan sonra Rusiya tərəfindən Sərkisyanın baş nazir postuna, onun yerinə isə Karen Karapetyanın prezident gətirilməsi mümkündür. Artıq Ermənistanda xalqın rəyinə məhəl qoyulmur. Əgər bu gün müharibə partiyası hakimiyyətdə rəhbər vəzifə tutacaqsa və erməni əsgərləri Azərbaycan ərazilərində öləcəksə, deməli, onları maraqlandıran yalnız hakimiyyətdir. Ermənilər ərazi iddiaları ilə dünyanın gözü qarşısında beynəlxalq hüquqa məhəl qoymurlar. Ermənistan hakimiyyəti işini məhz bu istiqamətdə davam etdirəcək. Nəticədə emiqrasiya sürətlənəcək, ölkə daxilində iğtişaşlar qaçılmaz olacaq. Bu, o anlama gəlir ki, Azərbaycan diplomatik siyasətindən sonra öz hərbi potensialına güvənərək Qarabağ problemini həll etmək məcburiyyətində qala bilər. Bunu dünya ictimaiyyəti, ilk növbədə isə ABŞ, Fransa və Rusiya başa düşməlidir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 72 (6686) 8 aprel 2017

# Azərbaycandakı qırğızlar nəzarətə götürülüb - ekspertdən sensasion açıqlamalar

## İlham İsmayıl: "Əsas məsələ odur ki, Azərbaycanın xüsusi xidmət orqanları belə şəxsləri nəzarətdə saxlaya bilir"

**Yeni il gecəsi Türkiyədə, İstanbulun mərkəzində "Reina" barında qanlı terror aktı törədib 40 nəfəri öldürən, 69 nəfəri yaralayan terrorçu ilə Rusiyanın Sankt-Peterburq şəhərindəki metroda partlayış törədib 10-dan çox şəxsi qanına qəltan edib 50 nəfəri yaralan şəxsləri birləşdirən məqam müzakirə mövzusudur.**

"Reina" terrorçusu Əbu Məhəmməd Xorasani kod adlı Abdulqədir Maşaripov da, 2 metro stansiyasını partladan Akberjon Cəlilov da Orta Asiyadan, konkret olaraq Qırğızıstandandırlar. Hər iki şəxsin Qırğızıstandan olmaları bilinəndən sonra Orta Asiyada terrorçuların yetişdirildiyi düşərgələrin olması məsələsi də yenidən gündəmə qayıdıb. *Belə düşərgələrdə təlim görmüş, ən müxtəlif silahlarla davranmaqdan tutmuş məişət əşyalarından hündürmərtəbəli binaları lərzəyə gətirmək gücünə malik partlayıcılar düzəltməyə qədər biliklər öyrədilmiş şəxslər Azərbaycana da gələ bilərlərmi?*

*3 aydan bir qədər çox fərqlə qanlı aksiyalar törətmiş şəxslərin Qırğızstan vətəndaşları olması ümumilikdə bu dövlətin ölkəmizə gələn vətəndaşlarına xüsusi diqqət yetirilməsini zəruri edirmi? Azərbaycana gələn Qırğızıstan vətəndaşları xüsusi nəzarətə alınıblar?*

**Təhlükəsizlik xidmətinin sabiq zabiti, təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayıl** deyir ki, bütün bu olaylardan sonra Azərbaycanın xüsusi xidmət orqanları xüsusi tədbirlər həyata keçirir: "Bildiyim qədər təhlükəsizlik xidmətinin son əməliyyatlarında da Orta



Asiya ilə bağlılığı olan Azərbaycan vətəndaşlarının adları da ön sırada olub. Azərbaycanın təhlükəsizlik orqanında bu istiqamətdə kifayət qədər əməliyyat məlumatı var. İndiyədək Miqrasiya Xidməti Orta Asiyadan çıxanları deportasiya edib. Açıq şəkildə onların hansı məsələlərə görə deportasiya olunduğu deyilməsə də, onların içində terror təşkilatları ilə müəyyən bağlılıqları, əlaqələri olanlar da yox deyil".

**İ.İsmayıl qeyd edib ki, bu gün Azərbaycan xüsusi xidmət orqanları ilə Orta Asiya xüsusi xidmət orqanları arasında ciddi fikir mübadiləsi, iş birliyi, əməkdaşlıq var:** "Orta Asiya xüsusi xidmət orqanları ilə ölkəmizin xüsusi xidmət orqanlarının münasibətləri səmimidir. Daha aydın fikir mübadiləsi var. Yardımlaşmaqda, əməkdaşlıqda daha səmimidirlər. Rusiya xüsusi xidmət orqanları ilə Orta Asiya xüsusi xidmət orqanları arasında münasibətlər bu səviyyədə deyil. Rusiya xüsusi xidmət orqanları yeri gələndə öz mənafeləri naminə kimin digər ölkə ərazisinə keçdiyini sona qədər açıqlamırlar. Orta Asiya xüsusi xidmət orqanları şübhəli bildikləri şəxslərin kimlikləri haqda əməkdaşlıq etdikləri ölkələrin xüsusi xidmət orqanlarına vaxtında, tam məlumat verirlər. Rusiyanın imperiya ambisiyaları isə buna yol vermir. Uzun müddətli mina basdırmaqla məşğul olurlar. Yeri gələndə bir komanda verilir və hansısa hərəkət törədilir. Düzdür, Azərbaycanın xüsusi xidmət orqanları ilə Rusiya xüsusi xidmət orqanlarının əlaqələri, əməkdaşlığı var. Putinin keçirdiyi son görüşdə belə halların qarşısının alınması üçün çağırışlar vardı. Bütün bunlarla bərabər Rusiya xüsusi xidmət orqanları keçmiş postsovet ölkələrinin hamısı, o cümlədən Azərbaycanın xüsusi orqanları ilə çox səmimi deyillər".

**İ.İsmayıl Azərbaycandan çıxarılan Orta Asiya ölkələri vətəndaşlarının adlarının açıqlanmamasının səbəbini belə izah etdi:** "Əlbəttə ki, Miqrasiya Xidməti filankəsin ölkədən təhlükəsizlik orqanının tələbi ilə çıxarıldığını açıqlaya bilməz. Amma bununla belə son günlər ölkədən çıxarılanlar sırasında belə şəxslər var. Əsas məsələ odur ki, Azərbaycanın xüsusi xidmət orqanı belə şəxsləri nəzarətdə saxlaya bilir. Onların konkret adlarını çəkmək baxımdan doğru deyil ki, həmin şəxslər, onların arxasında dayanan qüvvələr duyuq düşə bilərlər".

**İ.İsmayıl qeyd edib ki, Türkiyədə, ardından Rusiyada törədilən terror aktlarından sonra Orta Asiya kökənli insanlara nəzarət təkcə Azərbaycanda deyil, Avropa dövlətlərində də güclənib:** "Həmin terror aktlarının icraçılarının Orta Asiyadan olmaları bütün dünyada xüsusi xidmət orqanlarının maraq dairəsini bir qədər də genişləndirib. Azərbaycanda da təhlükəsizlik xidmətinin ayıq-sayıqlığını normal qəbul etmək lazımdır. Azərbaycan xüsusi xidmət orqanının Orta Asiya xüsusi xidmət orqanları ilə səmərəli əməkdaşlığının nəticəsində vəziyyət nəzarətdə saxlanılır. Aydındır ki, Orta Asiyadan gələnlərin hamısı terrorçu deyil. Amma gələnlərin arasında terrorçunun olması da istisna deyil. Belə şəxslər haqda ən çox məlumatlı olan elə Orta Asiyanın xüsusi xidmət orqanlarıdır. Onlardan Azərbaycana keçmək istəyənlər haqda ölkəmizin xüsusi xidmət orqanının məlumatı da olur. Belə halda xüsusi xidmət orqanımız maksumum çalışır ki, həmin şəxsin deportasiyasına və ya həbs edilib ekstradisiyasına nail olsun. Belə şəxslər haqda məlumatlar açıq şəkildə verilmir, ümumilikdə Miqrasiya Xidmətinin hesabatında yer alır. Çünki xüsusi xidmət orqanı açıqlamır ki, biz 2 özbək, 3 qırğız vətəndaşını ekstradisiya və ya deportasiya etdik. Bu, əlavə informasiyaya çıxışın qarşısını ala bilər, əlavə mənbələrə çıxışı əngəlləyə bilər, ən əsası terrorçunun qabaqcadan xəbərdar edilməsi olar. Ona görə də bu işlər məxfi şəkildə aparılır. Bu günə qədər Azərbaycanda "çp" fövqəladə hadisə baş verməyibsə, bunu xüsusi xidmət orqanımızın uğuru saymaq lazımdır".

❑ E.MƏMMƏDƏLİYEV

# Sabah "Dadaş Novxaninskiy"in il mərasimi olacaq-"Lənkəranski" ona niyə düşmən oldu?

## Bir il əvvəl Borispol hava limanında özünə yetirdiyi xəsarətlərdən sonra dünyasını dəyişən "qanuni oğru"nun sirli görüşünün təfərrüatları...

**Aprelin 9-da bir il əvvəl Borispol hava limanında özünə yetirdiyi xəsarətlərdən sonra dünyasını dəyişən "qanuni oğru" Dadaş İbrahimovun ("Lotu Dadaş") il mərasimi keçiriləcək. Bu barədə xəbər verən bakipost.az- saytının məlumatına görə, doğulduğu Novxanıda keçiriləcək il mərasiminə Rusiya və Gürcüstandan olan "qanuni oğru"ların da qatılacağı gözlənilir.**

"Lotu Dadaş" Bakının ən tanınmış avtoritetlərindən biri olan Hikmət İbrahimovun ailəsində doğulub. H.İbrahimov dövrünün ən nüfuzlu avtoritetlərindən biri kimi tanınıb. O, 1937-ci ildə anadan olub, 2004-cü ildə xəstəlikdən vəfat edib. Mərhum "qanuni oğru"nun evində indi böyüyən yeganə övladı Hikmət adını daşıyır.

Dadaş "qanuni oğru" adını 2000-ci ildə, 27 yaşında alıb. O ilk məhkumluğunu 2002-ci ildə yaşayıb. D.İbrahimov xuliqanlıq maddəsi ilə 1,5 il azadlıqdan məhrum edib. Sonuncu dəfə 2011-ci ilin iyununda Sankt-Peterburqa getmək istəyərkən narkotik maddə ilə həbs edilmişdi. Moskvanın Meşanski Rayon Məhkəməsinin hökmü ilə 4 il müddətinə azadlıqdan məhrum edilən "qanuni oğru"nun "srok"u 2015-ci ildə daha 11 ay artırılmışdı. Buna səbəb kimi isə onun Krasnayarskda cəza çəkdiyi 17 saylı kolonun telefon keçirmək istəyi olub. Rəsmi qaynaqlarda onun telefonu keçirmək müqabilində türmə əməkdaşına rüşvət olaraq öz saatını təklif etməsi ilə izah edirdilər.

2015-ci ilin yanvarında Ədliyyə Nazirliyi "qanuni oğru"nun Rusiya ərazisində qalmasının arzuledilməz olması barədə qərar vermişdi. Bu səbəbdən cəzasını bitirib azadlığa çıxan kimi polis nəzarəti altında onu Moskvanın "Domodedovo" aeroportundan Azərbaycana deportasiya olunmuşdu. Amma o, Bakıdan dərhal İstanbula gedib. Məlumata görə, Dadaş "Rövşən Lənkəranski"nin Sumqayıtda



"smotryayuşi" olan adamı haqsız yerə cəzalandırdığı üçün "sxodka"ya çağırılıbmış.

Rusiya mənbələri o zaman xəbər vermişdi ki, Dadaş İstanbuldakı bir kafedə "Lənkəranski"nin keçirdiyi "sxodka"da iştirak edib. Bu görüşdə onun "Rövşən Lənkəranski"nin imzası olan "praqonu" niyə tanımadığı barədə soruşulub.

Bu "sxodka" da nə baş verdiyi haqda iki versiya var. Birincisi budur ki, "Lənkəranski" izahla qane olmayıb və Dadaşın "qanuni oğru" adını "dayandırıb". Bu isə "Lotu Dadaş" üçün ölüm hökmünə bərabər sayıldığı üçün o, İstanbuldan Biraspol hava limanına uçub, burada sonradan üzə çıxan videogörüntülərdən də təsdiqləndiyi kimi bıçaqla canına qəsd edib, ona yaxınlaşan polisi isə yaralayıb. Daha bir versiya da var ki, "Lənkəranski" onu mərhum atasının adına hörmət əlaməti olaraq bağışlayıbmış...

"Lotu Dadaş" 2013-cü ildə öldürülən Aslan Usoyana ("Ded Xasan") loyal mövqeyi ilə tanınan azərbaycanlı "qanuni oğru"lardan biri idi. Onun "Lənkəranskinin" "qanundan kənar" elan etdiyi Nadir Səlifovun("Lotu Quli") "oğru" adının bərpası ilə bağlı "Ded Xasan"ın məktubuna da imzasını qoyduğunu unutmayaq. "Lənkəranski" ilə düşmənçilik edən "Ded Xasan"ın qətlindən sonra ona yaxın olan azərbaycanlı "qanuni oğru"ların da "yarpaq tökümü" başladı. Onlar bir-birinin ardınca öldürüldülər ki, bu qətllərdə də "Lənkəranski"nin adı hallanırdı. "Lotu Dadaş" həbsdən çıxandan sonra faktiki təklənmiş kimi görünürdü və gözlənilənlər də başına gəldi...

**Allah rəhmət eləsin...**

❑ ORXAN

# MTN generalı və digərlərinin həbs müddəti uzadılıb

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Antiterror Mərkəzinin sabiq rəisi, general-mayor Elçin Quliyev və digərlərinin həbs müddəti uzadılıb.**

APA-nın məlumatına görə, Səbael rayon Məhkəməsinin qərarı ilə həbsin müddəti bir ay artırılıb.

Qeyd edək ki, həmin şəxslərin barəsində olan cinayət işi bir müddət əvvəl yekunlaşaraq baxılmaq üçün Bakı Hərbi Məhkəməsinə göndərilib.

MTN ətrafında baş verən hadisələrdən sonra MTN-in Antiterror Mərkəzinin rəisi general-mayor Elçin Quliyev tutduğu vəzifədən azad olunaraq MTN-in Heydər Əliyev adına Akademiyasının kafedra rəisi təyin edilib. Daha sonra o, həbs edilib.

MTN işi üzrə təqsirləndirilən şəxslərin cinayət işi bir neçə yerə ayrılıb. Onlardan idarə rəisi Akif Çovdarov, general Sübahir Qurbanov və digərlərinin məhkəmə prosesi hazırda Bakı Hərbi Məhkəməsində davam edir.

YENİ MÜSAVAT
N 72 (6685) 8 aprel 2017

**Son illərdə dünyada demokratiya və insan haqları kimi mühüm məsələlərin arxa plana keçdiyi görünür. Əgər əvvəllər Avropanın öndə olan dövlətləri bu məsələlərlə bağlı digər ölkələrə təzyiqlər edirdilərsə, indi tam əksidir, hərbi güclə təzyiqlər, təhdidlər olunur.**



# "Əsəd getsə də Suriyada heç nə dəyişməyəcək"

## Elçin Mirzəbəyli: "Ərəb liderləri islahatlar aparmamaqla "canlı bomba"lar yetişdirirdilər"

Xüsusilə, bu proses demokratiya adı altında 2011-ci ildə başlanan "Ərəb baharı"ndan sonra sürətləndi. Həmin vaxt Tunis, Misir, Liviya, Yəmən kimi ölkələrdə hakimiyyət çevrilişləri edildi. Bu dövlətlərin çevrilişlərdən sonra bu günün özündə də hansı bəlalara düçar olduqları göz önünədir. Amerika başda olmaqla, Qərbin super gücləri guya bu dövlətlərdə sabitliyi bərpa edəcəkdilər. Amma tam əksi oldu, həmin ölkələr tarixlərinin ən böyük faciələrini yaşadılar.

Son olaraq, Suriya ilə bağlı oxşar proseslərin getdiyini demək olar. Bəşər Əsədlə bağlı Rusiya və Amerikanın üz-üzə gəldiyi Suriyada günahsız insanlar məhv olurlar. Proses getdikcə uzanır, Suriya isə dağılmaqda davam edir. Bu nüansı nəzərə alaraq, Əsəd rejiminin qalmasını istəyənlərin sayı durmadan artır. Çoxları hesab edir ki, Əsədin hakimiyyətdə qalmağı getməyindən daha sərfəlidir. Arqument kimi də, onun hakimiyyətdən gedişinin Suriyanı daha çox fəlakətlərə sürükləməsi, bir neçə dövlətin maraqlarının burada toqquşması göstərilir. Azərbaycanın yerləşdiyi regionda və dünyada gedən oxşar proseslərin bütün dünya ölkələrinin demokratiyasına, insan haqlarına ciddi zərbə vurduğu qeyd olunur.

**Politoloq Elçin Mirzəbəyli** "Ərəb baharı"nın məqsədyönlü layihə olduğunu düşünür: "Ərəb baharı" Aralıq dənizi hövzəsinin zəngin enerji resurslarına və strateji əhəmiyyət kəsb edən nəqliyyat dəhlizlərinə sahiblənmək üçün düşünülmüş bir layihə idi. Məqsəd isə ondan ibarət idi ki, bölgə uzun müddətə xaosa sürüklənsin və beynəlxalq arbitrlərə ehtiyac duysun. Bölgə dövlətləri öz enerji resurslarından istifadə edə bilməsinlər, müasir sivilizasiyadan hələ uzun müddət geridə qalsınlar və asılı vəziyyətə düşsünlər. "Ərəb baharı" Samuel Hantinqton "Sivilizasiyaların toqquşması" geosiyasi nəzəriyyəsinin həyata keçirilməsi və bu müstəvidə Qərbin maraqlarının təmin olunması istiqamətində gerçəkləşdirilən bir layihə idi və təbii ki, məqsədyönlü xarakter daşıyırdı. Misir, Liviya, Suriya və digər bu kimi dövlətlərin liderləri öz ölkələrində sabitliyi, təhlükəsizliyi müəyyən dövr ərzində qoruyub saxlaya bilsələr də, öz xalqlarının mədəni və intellektual səviyyələrinin qaldırılması üçün heç bir addım atmamışdılar. İnsan sadəcə bioloji varlıq deyil, həm də bəlkə daha çox sosial varlıqdır. Sadaladığım ölkələrin liderləri bu amili unutmuşdular, insanlara sadəcə bioloji varlıq kimi baxırdılar. Yəni bir az kəskin ifadə etsək yemək-içməyini verdin, minimum həyatını və təhlükəsizliyini təmin elədin, vəssalam. Qərb isə onlarla yaxından əməkdaşlıq edirdi. Çünki Qərbə öz maraqlarını təmin etmək üçün 1 adamla münasibət qurmaq daha əlverişli idi. Rahat şəkildə işlərini görürdülər, həmin ölkələrin təbii resurslarını daşıyıb aparırdılar. Əgər Qərbə demokratiya lazım olsaydı, on illər boyu Mübarəklə və digərləri ilə əməkdaşlıq etməzdi. Təəssüf ki, ərəb liderləri də başa düşmürdülər ki, cahil, mədəni və intellektual səviyyəsi aşağı olan insan daha təhlükəlidir və əslində onlar islahatlar aparmamaqla öz ölkələrində "canlı bomba"lar yetişdirirdilər. Yəni burada sadəcə insanları acizlikdə, siyasi korluqda suçlamaq doğru olmaz. On illər ərzində məişət səviyyəsində idarə olunan və yanaşılan insanlar siyasi cəhətdən uzaqgörən ola bilməzdilər. Bu faktordan da "Ərəb baharı"nın ideoloqları məharətlə istifadə edə bildilər".

**Politoloq Əsədin getməsinin yaxud qalmasının heç bir önəm daşımadığını qeyd etdi:** "Əsəd qalsa da, getsə də Suriyada heç bir şey dəyişməyəcək və çarəsiz insanlar hələ uzun müddət faciəli vəziyyətdə, dağıntılar arasında yaşamağa davam edəcəklər. Nəzərə almaq lazımdır ki, Suriya ərəb ölkələri arasında mədəni səviyyəsinə görə qismən yüksəkdə dayanırdı. Bu isə şübhəsiz ki, Bəşər Əsədin xidmətləri sayəsində baş verməmişdi. Suriya 1922-ci ildən 1946-cı ilədək Fransanın koloniyası olub. Yalnız 1939-41-ci illərdə Almaniyanın Fransanı işğal etməsi nəticəsində nəzarətdən kənarda qalıb. Yəni Suriyaya Fransanın və fransız mədəniyyətinin yetərincə təsiri olub. Buna baxmayaraq, Suriya vətəndaş müharibəsinə sürükləndi və Əsəd də bu prosesin qarşısını ala bilmədi. Bundan sonra da əli qana bulaşmış bu şəxsin Suriyanı idarə edəbiləcəyinə inanmıram. Azərbaycan regionda və dünyada baş verən proseslərdən qənaətimə görə düzgün nəticə çıxarıb. Demokratiya, insan haqları və bu kimi sosial haqların dünyada baş verən proseslərlə əlaqələndirilməsini doğru yanaşma saymıram. Azərbaycan tədrici və innovativ inkişaf yolunu seçib. İnsanlarımızın mədəni və intellektual səviyyəsi yüksəkdir. Amma bu prosesin davam etməsinə və daha da intensivləşməsinə ehtiyac var. Biz xalqımızı dünyada baş verən proseslərə hazırlamalıyıq. Bu sahədə gərəkli olan addımlar atılır və düşünürəm ki, daha da genişləndiriləcək. Əsas məsələ ölkəmizi xarici təsirlərdən maksimum qorumaqdır. Dünyada baş verən proseslər sübuta yetirdi ki. xarici təsirlər heç vaxt konkret dövlətin maraqlarına və xalqın mənafeyinə xidmət eləmir".

**❑ Cavanşir ABBASLI**

# Tramp Suriya ilə bağlı dediyini etdi, Tehranla bağlı da edəcəkmi...



## ABŞ-ın İranı da vurub-vurmayacağı məsələsində fərqli proqnozlar

**ABŞ prezidenti Donald Tramp Suriya ilə bağlı dediyini etməyə başladı. Bəşər Əsədə məxsus hərbi hava limanını bombalatdı. Tramp Əsəd rejimi ilə yanaşı, İranı da son bir ay ərzində bir neçə hərbi müdaxilə ilə hədələyib. Onun İranla bağlı da dediklərini edəcəyi gözlənilirmi? İrana da müdaxilə olsa regionu nə gözləyir?**

**Beynəlxalq məsələlər üzrə ekspert Elşən Mustafayev** bildirdi ki, İran məsələsi isə bir az fərqlidir: "Donald Trampın Suriya məsələsində atdığı son addımları gözlənilməz adlandırmaq olmaz. Hələ aylar öncə deyilirdi ki, Tramp adminstrasiyasının Yaxın Şərq probleminə olacaq münasibətindən sonra Rusiya da, Əsəd də Obamanı çox xatırlayacaqlar. ABŞ-n Yaxın Şərq siyasəti Obamanın və ya onun adminstarsiyasının müəyyənləşdirdiyi bir xətt deyil ki, indi Tramp onu dəyişdirsin. Bu bir dövlət siyasətidir, adminstrasiyalar onu fərqli üsullarla həyata keçirə bilərlər, amma nəticə bir hədəfə hesablanmalıdır. Trampın bu gün atdığı addım, Əsəd rejimini devirmək üçün Suriyanın bombalanması da məhz həmin nəticənin alınmasına hesablanıb. Rusiya nə qədər bunun əleyhinə getsə də son günlər Əsədin kimyəvi silahdan istifadəsi beynəlxalq təşkilatlarda onun əl-qolunu bağlayacaq. İran məsələsi isə bir az fərqlidir. Bilirik ki, Əsədin əsas dəstəkçilərindən biri də məhz İrandır. Trampın İranı hədələməsi İrana xəbərdarlıqdır. Bu mesajla demək istəyirlər ki, insanlıq əleyhinə cinayətlərdə ittiham olunan bir rejimə dəstək vermək həmin rejimin indiyə qədər törətdiklərinə şərik olmaq deməkdir. Bu ittihamla hətta BMT çox rahatlıqla İrana qarşı tədbirlərin görülməsinə yaşıl işıq yandıra bilər. İran uzun müddət idi ki, iqtisadi sanksiyalara məruz qalmışdı. Obama hakimiyyətinin son illərində bu sanksiyaların böyük bir hissəsi, xüsusilə neft ixracına qoyulan sanksiyalar götürüldü. Əminəm ki, bu sanksiyalar hansısa danışıqlardan və ya razılaşmalardan sonra götürülüb. Böyük ehtimallarla bu razılaşmalarda Suriya məsələsi də olub. ABŞ-n Əsəd rejiminə son zərbələri vurmağa hazırlaşdığı dövrdə İran Əsədə hərtərəfli dəstəyi verəcəksə o zaman İrana qarşı münasibətlərin yeni fazaya keçəcəyi qaçılmazdır. Amma bu dəfə iş sanksiyalarla bitməyib, regionda yeni müharibə ocağı yarana bilər".

**Ekspertin sözlərinə görə, şübhəsiz İrana hərbi müdaxilənin regiona, o cümlədən İranla sərhəddə yerləşən Azərbaycana da təsiri olacaq**: "Burada çoxsaylı qaçqınların olmasından başlamış, sərhədlərimizin təhlükəsizliyinə qədər yaranacaq problemlərimiz və digər bu gün görə bilmədiyimiz çətinliklər ola bilər. Amma ümid edək ki, məsələlər bu həddə gəlib çıxmayacaq. Bu xüsusilə İrana lazım deyil. Məsələlərin siyasi danışıqlar yolu ilə çözülməsinə, reallıqların nəzərə alınmasına çalışmaq lazımdır".

**Politoloq Əhəd Məmmədli** isə hesab edir ki, ABŞ heç zaman İrana ciddi hərbi müdaxilə edəsi deyil: "Amerika Suriyaya zərbələr endirdi amma bu hələ tam şəkildə müdaxilə deyil. Sadəcə, azğınlaşmış Əsəd rejiminin dinc müsəlman əhaliyə qarşı bir neçə kimyəvi qətliamından sonra ABŞ bu hücumlarla həmçinin imicini düzəltməyə məcbur qaldı. Çünki göz qabağında açıq şəkildə bir qətliam baş verir və özünü sivil demokratik dünyanın mərkəzi sayan ABŞ Suriyada nə isə etməyə məcbur qalmışdı və yaxud özü bu vəziyyətə çatmasını gözləyirdi ki, məhz indi müdaxilə etsin. Üstəlik Suriyada Türkiyə və Rusiyanın əsas oyunçuya çevrilməsinə də Amerika göz yuma bilməzdi. Yəni Suriyaya endirdiyi zərbələrlə Pentaqon xatırlatdı ki, biz də burdayıq.

İrana gəldikdə, ABŞ heç zaman İranı ciddi hərbi müdaxilə edən deyil. Hardasa bir-iki zərbə endirə bilər, amma müharibə etməz. Çünki İranı sıradan çıxartmaq müsəlman dünyasında status-kvonu pozmaq deməkdir. Bu da Qərbin maraqlarına cavab vermir. Nə vaxta qədər İran dövləti və yaxud İranda hökm sürən rejim var, o vaxta qədər Qərb məzhəb ayrı-seçkiliyindən istifadə edib, Şərqə asanlıqla müdaxilə edib manipulyasilarını davam edəcək və bununla həmçinin İsrailin təhlükəsizliyini qoruyub saxlamış olacaq".

**❑ Etibar SEYİDAĞA**

# Bakıya uçan təyyarə taksiləri: qiyməti neçəyədir?




**Gürcüstanın "Adjara Group Hospitality" şirkətinin yenicə istifadəyə verdiyi təyyarə taksilərinin Bakıya uçuş qiyməti açıqlanıb. Seyyah.az bildirir ki, şirkətdən verilən məlumata görə, təyyarə taksilərlə Tbilisidən Bakıya və geriyə (yəni iki tərəfə) uçuş qiyməti 6930 dollar təşkil edir. Tbilisidən Bakıya birtərəfli uçuş da bu qiymətə başa gələcək, çünki istənilən halda təyyarə Tbilisidən qayıtmalıdır.**

Təyyarə taksi ilə Tbilisidən İstanbula və geriyə uçuş isə 11200 dollar təşkil edir.

Bu qiymətə təyyarə taksinin təyinat yerində beş saat gözləməsi də daxildir. Yəni sərnişin getdiyi yerdə işini beş saat ərzində bitirərsə, həmin təyyarə ilə geri qayıda bilər. Ləngimə beş saatdan artıq olarsa, əlavə ödəniş tələb olunacaq.

Bundan əlavə, aeroportdakı qarşılanma xidməti xərcləri də ödənilməlidir - adambaşına 150 dollar.

Bakıya uçuş üçün iki həftə, İstanbula isə 2-3 gün əvvəl sifariş verilməlidir.

Qeyd edək ki, "Beechcraft king Air C90 GTx" taksi təyyarələri Tbilisi beynəlxalq aeroportundan Gürcüstanın bütün yerli hava limanına, eləcə də, Bakı, Yerevan, İstanbul, Trabzon və digər regionlara uçuşlar həyata keçirəcək.

Yeni müasir tipli avadanlıqla tam təchiz olunmuş təyyarə beş nəfər sərnişin üçün nəzərdə tutulub.

**İZRAİL ƏNƏNƏSİ ƏSASINDA ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

**Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.**

- Diaqnozu bilinməyən ağır hallar;
- Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
- Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- Sidikdə və spermada qan;
- Spermanın azalması, itməsi;
- Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
- Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
- Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- Tala-tala və hərtərəfli saçların tökülməsi;
- Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
- Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*
Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



## Hava dəyişəcək, yağış yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən musavat.com-a verilən məlumata görə, qərb rayonlarından başlayaraq ölkə ərazisində aprelin 9-u axşam hava şəraitinin dəyişəcəyi, aprelin 11-i gündüzədək qeyri-sabit keçəcəyi, arabir yağış, dağlıq rayonlarda qar yağacağı, bəzi yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi gözlənilir.**

Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu tədricən 4-7 dərəcə enəcək.

## Xaçmazda ötən il baş verən oğurluq faktının üstü açıldı

**Xaçmaz rayonunda ötən il baş verən oğurluq faktının üstü açılıb. APA-nın şimal bürosunun verdiyi məlumata görə, ötən ilin oktyabr ayının 30-da Xaçmaz Telekommunikasiya Qovşağına məxsus 60 metr uzunluğunda rabitə xəttini oğurlayan şəxslər saxlanılıb. Aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törədən şəxsin 1987-ci il təvəllüdlü Xaçmaz şəhər sakini, əvvəllər məhkum olunan Məmmədov Əkbər Şamil oğlu olduğu müəyyənləşib.**

İstintaq tədbirləri nəticəsində Ə.Məmmədovun daha bir oğurluq etdiyi aydınlaşıb. Onun Xaçmaz "Avtonəqliyyat" ASC-nin həyətindən 700 manat dəyərində olan, 75 kilovatlıq işıq generatorunu qanunsuz yolla apardığı da məlum olub.

Hər iki faktla bağlı Xaçmaz rayon Polis Şöbəsində cinayət işi açılıb, araşdırmalar davam etdirilir.

## Bakıda şagirdi məktəbin həyətində bıçaqladılar

**Bakıda məktəb şagirdi bıçaqlanıb. "Report"un məlumatına görə, hadisə Suraxanı rayonu, N.İsmayılov 25 ünvanında yerləşən 146 nömrəli orta məktəbin həyətində baş verib.**

Belə ki, Bakı şəhər sakini, 1989-cu il təvvəllüdlü Nizami Kərimov orada təhsil alan 2001-ci il təvəllüdlü Rəşad Novruzovun bud nahiyəsindən bıçaqla xəsarət yetirib.

Yaralı xəstəxanaya yerləşdirilib.

Hüquq-mühafizə orqanları faktla bağlı araşdırma aparır.

## Cəlilabadda yanacaqdoldurma məntəqəsinə basqın oldu

**Cəlilabadda yanacaqdoldurma məntəqəsinə basqın olub. Hadisə rayonun Alar kəndi ərazisində qeydə alınıb. Belə ki, kənd ərazisində "Al-petrol" yanacaqdoldurma məntəqəsinə daxil olan maskalı şəxs orada işləyən şəxsləri bıçaqla hədələyib və seyfi açmağı tələb edib. İstəyinə nail ola bilməyən şəxs qaçaraq hadisə yerini tərk edib.**

Hadisə ilə bağlı Cəlilabad Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır. ("Report")

## Şəkidə gəlinini güllələyən 84 yaşlı kişi həbsxanada öldü

**Azərbaycanda daha bir məhkum ölümü qeydə alınıb. APA-nın məlumatına görə, Penitensiar Xidmətin Müalicə Müəssisəsində müalicə alan, 1933-cü il təvəllüdlü Hüseynəli Abdulla oğlu İsmayılov xəstəlikdən ölüb.**

Qeyd edək ki, 84 yaşlı H.İsmayılov 2013-cü ildə yaşadığı Şəki rayonunda ov tüfəngi ilə gəlini İsmayılova Azadə Məmməd qızını güllələyərək qətlə yetirib.

## Sosial şəbəkələr vasitəsi ilə dələduzluq edən dəstə üzvlərinin məhkəməsi başladı

**Bakı Ağır Cinayətlər Məhkəməsində quldurluqda təqsirləndirilən İsmayıl Meybullayev, Rəhim Rəhimov, Elnur Balakişiyev, Asiman Məmmədov və Arifə Musayevanın cinayət işi üzrə məhkəmənin hazırlıq iclası başlayıb.**

APA-nın xəbərinə görə, hakim İradə Həsənzadənin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilənlərdən biri, ev dustaqlığında olan Arifə Musayevanın məhkəmə prosesinə gəlmədiyi məlum olub.

Proses aprelin 11-dək təxirə salınıb.

Məlumata görə, adı çəkilən şəxslər sosial şəbəkələr vasitəsi ilə gəncləri Bakıda kafeyə çağırıb, onları külli miqdarda hesab ödəməyə məcbur ediblər.

Vətəndaşların müraciətlərindən sonra ötən ilin may ayında Səbail Rayon Polis İdarəsinin İstintaq Şöbəsində cinayət işi başladılıb. İstintaq əməliyyatları nəticəsində dəstə üzvləri - Salyan rayon sakini, əvvəllər məhkum olunmuş 1984-cü il təvəllüdlü Rakif Xəlilov, Bakı şəhər sakini, 1978-ci il təvəllüdlü İsmayıl Beydullayev, Yevlax rayon sakini, 1986-cı il təvəllüdlü Rahim Rəhimov, Bakı şəhər sakini, 1988-ci il təvəllüdlü Elnur Balakişiyev, Naxçıvan MR sakini, 1989-cu il təvəllüdlü Asiman Məmmədov və yetkinlik yaşına çatmayan, yəni 2000-ci il təvəllüdlü, Salyan rayon sakini Arifə Musayeva tutulub. A.Musayeva barəsində polisin nəzarətinə verilmə qərarı çıxarılıb, digər şəxslər isə həbs edilib.

## Bakıda Almaniya vətəndaşının evindən oğurluq edən qadın 7 il həbs edildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində oğurluqda təqsirləndirilən Xanım Məmmədovanın cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. APA-nın xəbərinə görə, hakim Cavid Hüseynovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.**

Hökmə əsasən, X. Məmmədova 7 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, ötən ilin sentyabrında Nəsimi Rayon Polis İdarəsinin 22-ci Polis Bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Almaniya vətəndaşı Axel Güntel Gülbeztin evindən 6000 avro pul oğurlamaqda şübhəli bilinən Gürcüstan vətəndaşı Xanım Məmmədova tutulub.

## Elan

**Mərkəzdə, "Gənclik" metrosunun çıxışında, kupçalı 3 otaqlı daş ev, 5/4, orta blok. Nərimanov prokurorluğunun həyətində öz evimdir, orta təmirli, su, qaz, işıq daimidir. Qiyməti razılaşma ilə. Maklerlər narahat etməsin.**
**Əlaqə telefonu: (070) 399-01-00; (050) 234-64-67**

YENİ MÜSAVAT
N 72 (6686) 8 aprel 2017

# İtaliya məhkəməsi TAP-a qarşı; zeytun ağacları bəhanədir, yoxsa...

## İlham Şaban: "Bu məsələlərə sadəcə ekologiya prizmasından yanaşmaq düzgün deyil, burada Rusiyanın maraqları var"

**İtaliyanın Lazio Regional İnzibati Məhkəməsi Trans Adriatik Borusunun (TAP) keçəcəyi yerdə zeytun ağaclarının kəsilməsi üçün ekologiya nazirliyinin verdiyi icazəni dayandırıb.**

Bu barədə İtaliyanın ANSA xəbər agentliyi xəbər yayıb. Məlumatda deyilir ki, icazənin dayandırılması Pugli regional hökumətinin şikayətinə dair aprelin 19-a təyin edilmiş məhkəmə iclasına qədər qüvvədə olacaq. TAP-ın keçəcəyi Puglia rayonunun Melendugno bölgəsində zeytun ağaclarının kəsilməsinə qarşı böyük etiraz aksiyalarının davam etdiyi deyilir.

İtaliyanın sənaye naziri Carlo Calenda isə çərşənbə günü TAP-ın tikintisinin tezliklə başlanmasına ehtiyac olduğunu deyib. Nazir TAP-ın Melendugno-dan keçməsi ilə bağlı qərarın yalnız "alternativlərin dərin müzakirəsindən sonra" verildiyini deyib. Hazırkı planda zeytun ağaclarının borunun tikintisindən sonra eyni ərazidə yenidən əkilməsi nəzərdə tutulur.

Məlumat üçün qeyd edək ki, TAP 40 milyard ABŞ dolları dəyərində Cənub Qaz Dəhlizinin sonuncu hissəsidir və 2020-ci ildən Azərbaycandan İtaliyaya 10 milyard kub metr qaz gətirməsi planlaşdırılıb. TAP-ın tikintisi və zeytun ağaclarının köçürülməsi neçə gündür ki, "No TAP" komitəsinin fəallarının keçirdiyi aksiyalara görə dayandırılıb. TAP konsorsiumu kəmərin marşrutu boyu 216 çoxillik zeytun ağaclarının köçürülməsi üçün icazə alıb, lakin onlardan cəmi 4-nü köçürməyə imkan tapıb. İtaliya parlamentində təmsil olunan, Rusiyaya bağlı olan "5 Ulduz" hərəkatının yaratdığı "No TAP" komitəsinin keçirdiyi etirazlar nəticəsində işlər dayandırılıb. İndi isə məhkəmə ağacların köçürülməsinə verilmiş icazənin qüvvəsini dayandırıb.

**Məsələ ilə bağlı İtaliyanın Azərbaycandakı səfiri Campaolo Kutillo Lazio şəhər məhkəməsi çıxarılan qərara münasibət bildirib. Səfir qeyd edib ki, İtaliya hökuməti hazırda bu məsələ üzərində işləyir:** "Hazırda İtaliya məhkəməsinə təqdim edilmiş bəzi administrativ məsələlər var. Əminəm ki, bu məsələ həll olunacaq. TAP-la bağlı işlər artıq başlayıb və davam edəcək.

Məsələyə münasibət bildirən **Azərbaycanın energetika naziri Natiq Əliyev** qeyd edib ki, bu borunun tikintisinə öncədən razılıq verilib.

Natiq Əliyevin sözlərinə görə, marşrut əvvəlcədən razılaşdırılıb, hətta onu üzərinə müəyyən öhdəliklər götürmək şərtilə İtaliya hökuməti özü təklif edib.

"Nəzərə almaq lazımdır ki, bu layihə İtaliyanın özünə və digər Avropa ölkələrinə lazımdır - biz onları təbii qazla təchiz edəcəyik", - deyə, Natiq Əliyev bildirib.

**Azərbaycanın energetika naziri vurğulayıb ki, bu məhkəmə son instansiya deyil:** "Aprelin 19-na qədər gözləyək. Yenə təkrar edirəm ki, saziş İtaliya hökuməti ilə bağlanıb, regional hakimiyyətlərlə deyil. Marşrutu da biz təklif etməmişik. Ümumilikdə, problem bizə tanışdır. Bu cür manеələrə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisində və digər layihələrdə də rast gəlmişik".



"Yeni Müsavat" açıqlamasında TAP-ın tikintisi ilə bağlı yaranmış problemləri dəyərləndirən **Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban** bildirdi ki, bu layihənin tikilib başa çatması üçün hələ iki vaxt var və bu müddət ərzində problem həllini tapa bilər: "Hesab edirəm ki, aprelin 19-da keçirilən təkrar məhkəmədə eyni qərarı qüvvədə saxlayacaq. Burada söhbət 216 zeytun ağacının köçürülməsindən gedir. İndiyədək 50 zeytun ağacı köçürülüb. Bu heç onun yarısı da deyil. "Röyters" agentliyi də bunu qeyd etmişdi ki, əgər layihə icraçıları bu ağacların hamısını aprel ayında imkan tapıb köçürə bilməsələr, bir də noyabr ayını gözləməli olacaqlar ki, ağaclar məhv olmasın. O zaman işlər dondurulacaq. Bunu faciəyə döndərmək də lazım deyil. Çünki bu ərazidən kəməri cəmi 8 kilometrlik hissəsi keçəcək. Boru dənizdən çıxır və paylayıcı şəbəkələrə qədər uzanmalıdır. Boru kəməri iştirakçıları hələ 2018 və 2019-cu ilə qədər tikib başa çatdıra bilərlər".

**İ.Şabanın sözlərinə görə, əsas maraqlı məqam ondan ibarətdir ki, 2014-cü ildən etibarən bu cür hadisələr baş verir və bu sıradan bir hadisə deyil:** "Burada siyasi və siyasətdən doğan kommersiya maraqları var. Azərbaycan və Rusiya daim qeyd edirlər ki, heç zaman "Qazprom"la bu boru kəməri arasında bir problem yoxdur. Ancaq mən belə hesab edirəm ki, Rusiyanın qaz kəmərləri ilə rəqabət, 2014-cü ildən başlayan Qərb-Rusiya qarşıdurması, bu ölkəyə sanksiyaların tətbiqi və sairdən sonra Rusiyada bir qıcıq yaranıb. Necə ola bilər ki, 2016-cı ildə Rusiya ilk qazını "Türk axını" ilə Avropaya çatdırmaq istəyirdi. Digər layihələrə isə istehza edirdi ki, onlar heç 2023-cü ildə də reallaşmayacaq. Ancaq indi məlum olur ki, 3500 kilometrlik bir boru kəmərləri sistemi var və bu Cənub Qaz Dəhlizi adlanır- bu layihə reallaşmaq üzrədir. Ancaq Rusiyanın "Cənub axını" reallaşmadı. "Şimal axını" layihəsi də çox ciddi müqavimətlə qarşılaşıb. Təbii ki, 1968-ci ildən Avropaya qaz verən Rusiya düşünür ki, biz yaxın günlərdə bu sahədə Avropa ilə qaz əməkdaşlığımızın 50 illiyimizi qeyd etməyə hazırlaşırıq. Avropadan Rusiya qazına qırmızı işıq yandırılmasa da, yanıb-sönən bir sarı işıq yanır".

**Ekspertin sözlərinə görə, Rusiya ilə Avropa bu məsələdə razılaşma əldə etməsə, problem daha da dərinləşə bilər:** "Digər tərəfdən bizimki kiçik bir layihədir. Rusiya Avropaya 160 milyard kubmetrdən artıq qaz satır. 10 milyard kubmetrlik Xəzər qazı üçün bir-birinin ardınca yaşıl işıq yandırılır. Bu Rusiyada qıcıq doğurur. Rusiya hər vəchlə buna mane olmağa çalışır. Rusiya burada baş rolda görünməsə də, hansısa insanlar etiraz aksiyasına çıxır, zeytun ağaclarının köçürülməsinə etiraz edir, siyasilər buna dəstək verir. Əgər bu məsələdə Avropa Rusiya ilə dil tapmasa, onlarla qaz alışı məsələsinə razılığa gəlinməsə, bu boru kəmərinə mane olmaq üçün daha ciddi addımlara əl ata bilərlər. Ona görə də bu məsələlərə sadəcə ekologiya prizmasından yanaşmaq düzgün deyil".

❑ **Nərgiz LİFTİYEVA**

# Kərkükdə bayraq qalmaqalı: Ərdoğanın işə qarışması nəticə verəcəkmi?

## Politoloq: "İndiki halda ən yaxşı yol türkmənlərlə kürdlər arasındakı problemi siyasi yolla həll etməkdir"



**İraqda son günlər bayraq mübahisəsi yaşanmaqdadır. "Anadolu" agentliyinin məlumatına görə, ölkənin neftlə zəngin Kərkük əyalətində İraq bayrağı ilə yanaşı, Kürdüstan Muxtariyyətinin də bayrağı asılıb.**

Bundan sonra Kərkük Vilayət Məclisi əyalətin İraq Kürd Regional Rəhbərliyinə (IKBY) qoşulması həmçinin hansı bayrağın asılmasının təyin edilməsi üçün referendum keçirilməsi qərarı alıb. Kərkük Vilayət Məclisinin sədri Ribvar Tələbani, İraq Məclisinin şəhərdəki dövlət orqanlarında yalnız "İraq bayrağı" asılması qərarını tətbiq etməyəcəklərini açıqlayıb.

Məsələ ilə əlaqədar İraq baş naziri Heydər əl-Abadi Bağdadda ölkənin Baş Nazirliyinin binasında mətbuat konfransı keçirərək, Kərkükün yerli rəhbərliyinin ölkənin konstitusiyasının maddələrinə əməl etməli olduğunu bildirib. Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğan da İraqdakı bayraq məsələsinə münasibətini bildirərək Kərkükdə milli bayraqdan başqa ikinci bayrağın asılmasını düzgün hesab etmədiyini və bayrağı asanların parçalanma yaratdıqlarını söyləyib. Ərdoğan Kürdüstan Muxtariyyətinə səslənərək Kərkükdəki "Kərkük kürdləridir" cəfəngiyatını Türkiyə olaraq tamamilə qəbul etmədiklərini vurğulayıb.

*Bəs Ərdoğanın müdaxiləsi ilə bayraqlar götürülə bilərmi?*

**Politoloq Mübariz Əhmədoğlu** "Yeni Müsavat"a bildirdi ki, Bərzani hökuməti Ərdoğanın sözünə dəyər versəydi, əvvəlcədən bu addımı atmamalı idi: "Bayraq məsələsi bu günün mövzusu deyil. 4-5 ildən çoxdur ki, bayraq orada dalğalanır və kürdlərlə türkmənlərin arasında əməkdaşlıq var. Bayraq orada dalğalandığı dövrdə Məsud Bərzani Türkiyədə olub, Ərdoğanla görüşüb. Lakin bu məsələ müzakirə edilməyib. Sadəcə olaraq, Türkiyədə müəyyən qrup adamlar bəzən bu məsələləri hansısa baxımdan qarışdırırlar. Türkmənlərin ehtiyacları olan vaxt, onların Türkiyəyə və İrana müraciət etdikləri zaman türkmənlərə sahib çıxan olmadı. Təbii ki, belə olan halda türkmənlər təkbaşına sona qədər mübarizə apara bilməzdilər. Vaxtilə türkmənlər həm hərbi, həm maliyyə, həm də siyasi baxımdan kömək üçün İrana da, Türkiyəyə də müraciət ediblər. Kömək edilmədiyi üçün vəziyyət gəlib bu həddə çatdı. Bundan əlavə indi də heç kəs türkmənlərə vəd vermir ki, onlara olan himayə ardıcıl olacaq. Ola bilər ki, bir gün sonra Türkiyə rəhbərliyinin verdiyi bu bəyanat unudulsun. Hesab edirəm ki, yerli vəziyyəti türkmənlər özləri çox yaxşı bilirlər. Yeni türkmənlərin özlərinin bir qərarı var. Bu qərar yalnız o zaman dəyişilə bilər ki, türkmənlərlə Türkiyənin arasında uzunmüddətli danışıqlar aparılsın və onlar təminat alsınlar ki, Türkiyənin orada dəstəyi heç bir şərt daxilində dəyişməyəcək. Eləcə də Türkiyə türkmənləri inandıra bilsin ki, Ankara onları sonadək müdafiə etmək gücündədir".

**Politoloqa görə, bu bəyanat indiki geosiyasi konyunkturaya uyğun olan ritorikadır:** "Bunu başqa cür qiymətləndirə bilmirəm. Nəzərə almaq lazımdır ki, türkmənlər Azərbaycana daha yaxındır. Azərbaycan prezidenti də bu ilin yanvar ayında Davos Forumu çərçivəsində Məsud Bərzani ilə görüşdü. Düşünürəm ki, Azərbaycanın barışdırıcılığıda, problemləri dinc və dialoq yolu ilə yoluna qoymaqda müəyyən təcrübəsi var. Elə Türkiyə ilə Rusiya arasındakı münasibətlərində Azərbaycanın rolunu qeyd edə bilərik. Ona görə də hesab edirəm ki, indiki halda ən yaxşı addım türkmənlərlə kürdlər arasındakı problemi siyasi yolla həll etməkdir. Hazırda İraq Kürdüstanı hələ rəsmən muxtariyyət əldə etməyib. Belə bir vəziyyətdə İraq referendum keçirilə, kürd muxtariyyəti rəsmi dövlət statusu ala, yaxud da almaya, beynəlxalq aləmin buna yanaşması və digər bu kimi qeyri-müəyyənliklər var. Bütün bunların içərisində türkmənlərin durub kürd muxtariyyətinə qarşı vuruşması, güllənin qarşısına atılmaq kimi bir şeydir. Bu baxımdan düşünürəm ki, bayrağı oradan götürdə bilməyəcəklər".

**Qeyd edək ki, Kərkük, İraqda mübahisəli ərazilər statusundadır və İraq parlamentinin qərarına əsasən, buradakı bütün inzibati binalara yalnız İraq bayrağı asılmalıdır.**

❑ **Əli RAİS**

YENİ MÜSAVAT

Son səhifə

N 72 (6686) 8 aprel 2017



# 93 yaşlı nənəsini buraxılış gecəsinə dəvət etdi

Amerikanın Cənubi Karolina ştatında yaşayan gənc məktəbin buraxılış gecəsinə 93 yaşlı nənəsini dəvət edib. Bu haqda Daily Mail qəzeti xəbər verib. İnformasiyaya görə, Konnor Kempbell nənəsi Betti Ceynə hələ 2016-cı ildə təklif etmişdi ki, onu bu tədbirdə müşayiət etsin. 2017-ci ilin aprel ayı üçün 93 yaşlı qadın özünə ziyafət paltarı, eləcə də qızılgül buleti sifariş verib. Tədbirdən öncə təqaüdçü qadın özünə gecə makiyajı, habelə manikür də etdirib. Kinin sözlərinə görə, tədbirdə 100-ə yaxın məzun onu salamlayıb. Konnorun anası Jaklin isə deyib ki, nənə-nəvə tədbirdə olduqca yaxşı vaxt keçiriblər.

Daha öncə xəbər vermişdik ki, gəncin öz nənəsi ilə məzun gecəsinə qatılmaq istəyi məktəb rəhbərliyi tərəfindən etirazla qarşılanıb. O da buna etiraz olaraq sosial şəbəkədə haştaq yaradaraq hər kəsin diqqətini bu olaya çəkib.

# Tənha adamları qucaqlayan kreslo

Unicare firması Tokioda keçirilən Beynəlxalq Ev Əşyaları və Komfort sərgisində ilginc kreslo təqdim edib. Özəl olaraq yaşlı və tənha insanlar üçün nəzərdə tutulmuş kreslonun dizaynı olduqca maraqlıdır. Belə ki, oturacaq hissə gülən və uzun qolları ilə adamı qucaqlayan adam formasındadır. Dizaynerlər hesab edir ki, kreslo yaşlı adamlara kiminsə tərəfindən qucaqlandıqlarını hiss etdirəcək və bu, onlara yalnızlıqlarını unutdiracaq. New-York Daily News-un xəbərinə görə, kreslonun ümumi məbləği 420 dollardır. Unicare təmsilçiləri deyir ki, kreslo eyni zamanda əlillər üçün də ideal vasitədir. Sərgidə eyni zamanda sahibinə dərman qəbulunun və ayaqyolunq getmənin vaxtını xatırladan kukla da nümayiş etdirilib. Həmin kukla eyni zamanda yaşlı adamlara xoş gələn keçmiş yapon mahnılarını da ifa edə bilir.



# Meymunların tərbiyə etdiyi müasir mauqli tapıldı

Hindistanın şimalında meşədə meymunlarla yaşayan qız tapılıb. Bu barədə lenta.ru saytı “Times of India”ya istinadən xəbər verib. Nəşrin yazdığına görə, qızı polis əməkdaşı Sureş Yadav aşkarlayıb. O, Uttar Pradeş ştatında yerləşən Katarniaqxat bölgəsində keşik çəkərkən qızı aşkarlayıb. 8 yaşlı qız heyvanların hücumuna məruz qalmış, eyni zamanda çılpaq vəziyyətdə idi. Polis onu cunqli ərazisindən aparmaq istəyəndə meymunlar səs-səsə verərək, öz narazılıqlarını bildiriblər. Qızın özü də meşədən ayrılmamaq üçün israr edib. Polislər köməyə öz həmkarlarını çağırmaq zorunda qalıb. Xəbərdə həmçinin qeyd olunur ki, uşaq danışmağı bacarmır və meymunlar kimi “dördayaq” üzərində gəzir. Qızı yerli xəstəxanalardan birinə yerləşdiriblər. Hazırda polis onun şəxsiyyətini və meşəyə necə düşdüyünü müəyyən etməyə çalışır.



# Ata-ana laqeydliyi gələcəkdə infarkt yaradır

Uşaq vaxtı diqqətdən kənarda qalan uşaqların gələcəkdə infarkt keçirmə riski böyükdür. ABŞ alimlərinin 286 nəfər üzərində apardığı araşdırma sübut edir ki, bu cür uşaqlıq keçirmiş şəxslər digərləri ilə müqayisədə 3 dəfə artıq infarkt riskinə sahibdir. Nəticələr şəkər xəstəliyi, idman, siqaret vərdişi, ürək və digər narahatçılıq faktorları da nəzərə alınmaqla hazırlanıb. Maraqlıdır ki, daha öncə aparılan bəzi araşdırmalar uşaqlığa qarşı laqeydliyin gələcəkdə ruh xəstəliklərinə səbəb olduğunu üzə çıxarmışdı. Bundan başqa, daha çox hər ikisi işləyən valideynlərin uşaqlarında bu kimi hallar üzə çıxır. Alimlər müəyyənləşdirib ki, bu uşaqlar ata-anasından qayğı gözlədiyi halda, bu istəklərinə adekvat cavab ala bilmirlər.

# Qoroskop (8 aprel)




QOÇ - Çıxardığınız qərarlara məsuliyyətlə yanaşın. Əgər öz vəzifələrinizi dərk etsəniz, uğurlara yaxın olacaqsınız. İş yerində isə həmkarlarınızla münasibətləri mülayimləşdirməyə çalışın.

BUĞA - Bəxtinizdə uğurlu bir gün durur. Təzə xəbər eşidəcəyinizə təminat verən ulduzlar maddi durumunuzda irəliləyişlərin olacağını da istisna etmir. Kiminsə xətrinə dəyməyə çalışmayın.

ƏKİZLƏR - Bu şıltaq təqvimdə hər bir məsələyə ciddi şəkildə yanaşmalısınız. Hər hansı zarafat və ya qeyri-səmimilik vəziyyəti poza bilər. Başlıca vəzifəniz informasiya toplamaq olmalıdır.

XƏRÇƏNG - Hər şeydən əvvəl maliyyə məsələləri barədə düşünün. Hətta buna görə digər planlarınızı təxirə də salmaq olar. Günün ikinci yarısında ciddi sövdələşmələrdə iştirakınız gözlənilir.

ŞİR - Əsas gücünüzü fəaliyyət prinsipinə yönəldin. Aldığınız təklifləri dönə-dönə nəzərdən keçirin. Bütün görüş və danışıqlarda təşəbbüskarlığı əldən verməyin. Qarşınızda yeniliklər durur.

QIZ - Əzmkarlığınızı artırmaqla nüfuz dairənizi genişləndirə bilərsiniz. Bu arada uzaqda yaşayan doğmalarınızla mütləq əlaqə saxlayın. Maddi durumunuz imkan versə, səfərə də çıxmaq olar.

TƏRƏZİ - Bütün vacib planlarınızı təxirə salın. Çünki bu təqvim qlobal məsələlərin həlli üçün uğurlu deyil. Üstəlik, axşama yaxın mübahisəli situasiyalara da cəlb oluna bilərsiniz.

ƏQRƏB - Marsın aktivliyi sizə mütləq təsir edəcək. Ünsiyyətdə olduğunuz insanların əksəriyyətinə qarşı münasibətləri ılıqlaşdırmağa səy göstərin. Xoş təsadüflər və qonaqlıqlar da gözlənilir.

OXATAN - Günün ümumi mənzərəsi qənaətbəxşdir. Çox iş görmək olar. Kobudluq göstərməyin. Hər addımı vaxtında atmağa çalışın. Təzə xəbər və şəxsi büdcənizdə artım da gözlənilir.

OĞLAQ - Risk etməkdən qorxmayın. Əmin olun ki, qarşınızda duran maneələri yalnız cəsarətli olmaqla aradan qaldıra bilərsiniz. Sağlamlığınıza qayğı göstərməyi də unutmayın. Axşam tez yatın.

SUTÖKƏN - İxtiyarınızda olan bu təqvim ümumi məziyyətlərinə görə ürəyinizcə olsa da, ötən dövrün sıxıntıları bu ovqata müəyyən gərginlik qatacaq. Əsas enerjinizi sevgiyə ayırmaqla rahatlıq tapa bilərsiniz.

BALIQLAR - Üzərinizə götürdüyünüz öhdəlikləri yerinə yetirmək üçün mütləq kimdənsə dəstək almalısınız. Odur ki, ümid bağladığınız hər kəsə üz tutmağınız məsləhətdir. Hər hansı risk yolverilməzdir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Burnunu düzəltmək istədi, 3 aydır komadan çıxa bilmir



11 ay öncə evlənən 26 yaşındakı İbrahim Doğan rahat nəfəs ala bilmədiyi üçün üç ay əvvəl burnunu əməliyyat etdirməyə qərar verib. Amma əməliyyat zamanı gənc adam komaya girib və komadan çıxa bilmir. İ.Doğanın həyat yoldaşı prokurorluğa şikayət edib. 11 yanvarda əməliyyata girən gəncin burnundakı sümük alınarkən qəribə hadisə baş verib. Öncə gəncin ürəyi dayanıb, müdaxilədən sonra ürəyin fəaliyyəti bərpa olunub. Amma bu zaman da onun beyninə oksigen getməyib. Dərhal gənci Pamukkale Universiteti Xəstəxanasına göndəriblər. Bununla belə, 3 aydır ki, İ.Doğan reanimasiyadadır və ayılmır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100